

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

10 aprel 2026-cı il, cümə

№ 060 (7127)

Qiyməti 60 qəpik


# Mütləq qələbə, mütləq qalib dövlət...

## Azərbaycan 44 günə beynəlxalq hüququ və tarixi ədaləti bərpa etdi...



Bax səh. 3

## Paytaxtımız qlobal şəhər gündəliyinin mərkəzində

Bax səh. 3

## Qəti şəkildə rədd edilir!

Ölkəmizin uğurlarını sinirə bilməyən anti-Azərbaycan dairələr yenə iş başındadırlar. Respublikamızla bağlı növbəti absurd dəyərləndirmələr Amerika Birləşmiş Ştatlarının (ABŞ) Beynəlxalq Dini Azadlıq Komissiyasından (BDAK) gəlib. Belə ki, qurumun "2026-cı il İllik Hesabatı"nda 2025-ci ildə Azərbaycanda dini vəziyyətin qiymətləndirilməsi ilə bağlı istinadlar ölkəmizin reallıqları ilə ziddiyyət təşkil edir.

Bununla bağlı Azərbaycandakı Dini Konfessiya rəhbərləri bəyanat yayıblar. Bəyanatda qeyd edilib: "Biz, Azərbaycan Respublikasında yaşayan dini icmaların nümayəndələri, ABŞ-ın Beynəlxalq Dini Azadlıq Komissiyasının (BDAK) "2026-cı il İllik Hesabatı"nda yer alan 2025-ci ildə Azərbaycanda dini vəziyyətə dair əsassız iddialarla bağlı ciddi narahatlığımızı və dərin təəssüfümüzü ifadə edirik. Mövcud reallıqları nəzərə alaraq, hesabatdakı qiymətləndirməni qəti şəkildə rədd edirik".

Bəyanatda lobbi maraqlarının ifadəsi olan absurd dəyərləndirmənin Amerika Birləşmiş Ştatlarını təmsil edən qurumdan gəlməsinin məntiqinin başa düşülmədiyinə xüsusi diqqət çəkilib. Hesabatda yer alan əsassız iddialar Azərbaycan-ABŞ münasibətlərinin ruhuna qətiyyən uyğun gəlmir.

Xatırladaq ki, Azərbaycan müstəqillik qazandıqdan sonra ABŞ-la münasibətlərinin genişlənməsinə həmişə böyük önəm verib. Müəyyən mərhələlər, o cümlədən də Bayden administrasiyası dönəmi istisna olmaqla, ikitərəfli əlaqələr hər zaman yüksək dinamikaya malik olub. Ağ Evdə administrasiya dəyişikliyindən sonra isə ikitərəfli münasibətlərdə...

Bax səh. 4



## Bakının balanslı siyasəti...

Bax səh. 2

## Tramp NATO-ya güvənmir...

Bax səh. 5

## Atəşkəsdən sonra...

### Rusiya ilə Ukrayna arasında danışıqlar bərpa oluna bilərmi?

Bax səh. 5

## Yuvasını yandıran vulkan

Bax səh. 7

## Valyuta Fondunun nikbin ssenarisi

Beynəlxalq Valyuta Fondunun (BVF) missiyası Gürcüstanla IV Maddə üzrə məsləhətləşmələrin yekunlarına dair qiymətləndirməsində Cənubi Qafqaz üçün yeni münbit və sağlam əməkdaşlıq imkanlarının yaradıldığını bildirib. Fond hesab edir ki, Azərbaycanla Ermənistan arasında sülh sazişinin razılaşdırılması və davam edən inamlı sülh prosesi regionun geoiqtisadi simasını büsbütün dəyişdirməkdədir. Bu, həm iqtisadi-ticari, həm investisiya və kommunikasiya bağlantıları üçün mühüm fürsətlər yaratmaqla, regionun inkişaf arxitekturasını möhkəmləndirəcək amildir. Dəyərləndirmələrə əsasən, Gürcüstandan yan keçən alternativ ticarət marşrutları bütün tərəflər üçün kommunikativ yol açmaqla Cənubi Qafqazın logistika landşaftını da əhəmiyyətli dərəcədə dəyişdirə bilər. Ümumilikdə, sülh ssenarisi bütün regionun investisiya cəlbediciliyini artırmaqla, uzunmüddətli inkişaf istiqamətlərini müəyyən edəcək unikal model hesab edilir.

Qiymətləndirmədə vurğulanır ki, geosiyasi qeyri-müəyyənlik əsas risk amili olaraq qalır. Xüsusilə, Yaxın Şərqdə münaqişənin kəskinləşməsi İsrail və Fars körfəzi ölkələrindən turist axınlarının azalmasına, inflyasiyanın sürətlənməsinə və qlobal maliyyə şərtlərinin ağırlaşmasına gətirib çıxara bilər. Lakin münaqişənin uzun sürməsi əks təsirə - maliyyə və turist axınlarının Gürcüstanın xeyrinə yenidən bölüşdürülməsinə, eləcə də Orta Dəhliz üzrə tranzitin artmasına səbəb ola bilər.

BVF Ukrayna münaqişəsinin sülh yolu ilə həlli ssenarisinin də bölgəyə təsirlərini...

Bax səh. 4



## Avropanın təhlükəsizliyi: Ukraynanın roluna ehtiyac var

Bax səh. 7



## Razılaşma baş tutmasa...

Bax səh. 6



# Azərbaycanın pravoslav xristian icmasına

Hörmətli həmvətənlər!

Sizi - Azərbaycanın bütün xristian icmasını müqəddəs Pasxa bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzularımı yetirirəm.

Azərbaycanda yüzillərdir hökm sürən tolerantlıq mühiti burada məskunlaşmış ayrı-ayrı xalqların, etiqad və inancların mənsubları arasında nümunəvi və harmonik ictimai münasibətlərin bərqərar olmasında müstəsna rol oynamışdır. Biz cəmiyyətimizdə tarixən formalaşmış etnik-mədəni müxtəlifliyi, milli-mənəvi dəyərləri və multikultural ənənələri müasir dövlətçiliyimizin unikal sərvəti kimi qiymətləndiririk.

Hazırda ölkəmizdə demokratik-hüquqi prinsiplərin təmin edilməsi, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəsə, o cümlədən xristian icmasına özünəməxsus adət-ənənələrini, dil və mədəniyyətini yaşatmaq üçün geniş imkanlar yaradır. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, xristian həmvətənlərimiz ictimai-siyasi, sosial-mədəni həyatımızda fəal iştirak edir, müstəqil dövlətimizin hərtərəfli inkişafına layiqli töhfələr verirlər.

Əziz dostlar!

Dirçəlişin, yeniliyin, mərhəmət və şəfqət duyğularının rəmzi olan Pasxa bayramı hər il Azərbaycanda təntənə ilə qeyd olunur. Bir daha hər birinizə səmimi bayram təbriklərimi çatdırır, ailələrinizə firavanlıq, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti,**
**Bakı şəhəri, 9 aprel 2026-cı il**

# Litva Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin inkişafına dəstək verir

## Azərbaycan Prezidenti İlham Əliyev Litvanın Baş nazirini qəbul edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Litva Respublikasının Baş naziri İnqa Ruqinieneni qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Litvanın Baş nazirinin ölkəmizə səfərinin səmərəli olacağına və ikitərəfli əlaqələrimizin inkişafına töhfə verəcəyinə ümidvarlığını bildirdi.

Qəbula görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edən İnqa Ruqiniene Azərbaycanla Litva arasında uzun illərdir yaxşı münasibətlərin olduğunu məmnunluqla vurğuladı.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirildi, enerji, investisiyalar, təhsil, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıqla bağlı müzakirələr aparıldı, münasibətlərimizin genişləndirilməsi işində nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkil olunmasının vacibliyi qeyd edildi.

Litvanın Baş naziri Azərbaycanla Ermənistan arasında sülhün bərqərar olması münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Azad olunmuş ərazilərimizdə genişmiqyaslı bərpa və quruculuq işlərinin aparıldığını deyən Litvanın Baş naziri keçmiş məcburi köçkünlərin geri qaytarılması istiqamətində Azərbaycan dövləti tərəfindən genişmiqyaslı işlərin həyata keçirildiyini qeyd etdi.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev regionda sülhün və Azərbaycanla Ermənistan arasında ticarət münasibətlərinin qurulmasının təşəbbüskarının məhz ölkəmiz olduğunu vurğuladı.

Dövlətimizin başçısı bildirdi ki, artıq 30 minə yaxın keçmiş məcburi köçkünün öz dədə-baba yurdlarına qaytarılması təmin olunub. Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizdə Azərbaycan tərəfindən şəhərlərin, kəndlərin salındığını, nəqliyyat və digər sosial infrastruktur layihələrinin icra olunduğunu dedi. Ancaq bununla belə dövlətimizin başçısı qeyd etdi ki, həmin ərazilərdə minalar problemi mövcuddur ki, bu da bərpa və quruculuq işlərinin aparılmasını ləngidir. Prezident İlham Əliyev Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərimizdə indiyədək 400-dən çox insanın mina partlayışlarında həlak olduğunu və ya yaralandığını bildirdi.

Görüşdə Azərbaycan-Litva əlaqələrinin ikitərəfli gündəliyi ilə yanaşı, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu. Bu xüsusda Litvanın Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin inkişafına həmişə dəstək verdiyi vurğulandı.

Söhbət zamanı regional məsələlərə də dair fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev Türkiyənin daxili işlər nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Türkiyə Respublikasının daxili işlər naziri Mustafa Çiftçini qəbul edib.

AZƏRTAC xəbər verir ki, qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirən Mustafa Çiftçi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Azərbaycan Prezidentinə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Prezident Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında ikitərəfli münasibətlərin qardaşlıq və strateji müttəfiqlik prinsiplərinə əsaslandığı vurğulandı, bütün istiqamətlər üzrə əlaqələrin genişləndiyi bildirildi.

Ölkələrimizin müvafiq qurumları arasında səmərəli tərəfdaşlığın qurulduğu qeyd edildi, bu xüsusda Azərbaycanın və Türkiyənin Daxili İşlər nazirliklərinin də uğurlu əməkdaşlıq həyata keçirdikləri vurğulandı.

# Bakının balanslı siyasəti...

## Azərbaycan regionda sabitliyi dəstəkləyir

Azərbaycan müstəqillik əldə etdiyi dövrdən etibarən öz xarici siyasət kursunu milli maraqlar və beynəlxalq hüququn prinsipləri əsasında formalaşdırıb. Bu siyasətin əsasını isə sülh, qarşılıqlı əməkdaşlıq və sabitliyin qorunması təşkil edir. Ölkəmiz beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi çıxış edərək daim dialoq və anlaşma mühitinin gücləndirilməsinə töhfə verməyə çalışır. Bu yanaşma təkcə region daxilində deyil, qlobal miqyasda da Azərbaycanın mövqeyini aydın şəkildə nümayiş etdirir.

Xüsusilə uzun illər işğal və təcavüzlə üzləşmiş bir dövlət kimi Azərbaycan münaqişələrin nəticələrinin nə qədər ağır olduğunu yaxşı bilir. Məhz buna görə də rəsmi Bakı hər zaman mübahisəli məsələlərin hərbi deyil, siyasi və diplomatik yollarla həllini dəstəkləyib. Azərbaycan üçün sülh yalnız siyasi seçim deyil, həm də strateji zərurətdir. Çünki davamlı inkişaf, iqtisadi tərəqqi və regional təhlükəsizlik məhz sabitlik şəraitində mümkün olur.

Yaxın Şərqdə baş verən və 38 gün davam edən münaqişəyə münasibətdə də Azərbaycan eyni prinsipial mövqe nümayiş etdirib. Münaqişənin ilk günlərindən etibarən rəsmi Bakı tərəfləri təmkinə çağıraraq, məsələnin danışıqlar yolu ilə həllinin vacibliyini vurğulayıb. Bu gün də Azərbaycan həmin mövqedə qalaraq sülh təşəbbüslərini dəstəkləyir və regionda gərginliyin azalmasına yönəlmiş addımları müsbət qiymətləndirir.

**Sülh və sabitlik üçün...**

Bu mənada, Azərbaycan dövlətinin ABŞ ilə İran arasında atəşkəsin əldə olunmasına münasibəti də məhz pozitiv istiqamətdədir. Aprelin 8-də Azərbaycan Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana zəng edib. Dövlətimizin başçısı İran İslam Respublikası və Amerika Birləşmiş Ştatları arasında elan edilmiş atəşkəslə bağlı təbriklərini çatdırıb. Məsud Pezeşkian bu təbriklərə və ölkəmizin İrana göstərdiyi humanitar yardıma görə dövlətimizin başçısına minnətdarlığını bildirib. Telefon söhbəti zamanı ikitərəfli əməkdaşlığa dair məsələlər barədə fikir mübadiləsi aparılıb. Qeyd edək ki, İran Prezidentini atəşkəs ilə bağlı təbrik edən ilk lider İlham Əliyev olub.

Bu, Azərbaycanın sülhə verdiyi önəmin konkret nümunəsidir - ölkəmizin beynəlxalq proseslərə məhz sülh, sabitlik, əməkdaşlıq prinsiplərindən yanaşmasının sübutudur. Bu addım Azərbaycanın regionda gərginliyin azalmasına verdiyi siyasi dəstəkdir. Vurğulandığı kimi, rəsmi Bakı belə hallarda tərəflər arasında körpü rolunu oynamağa, qarşılıqlı etimadı gücləndirməyə çalışır. Azərbaycan üçün əsas prioritet regionda sabitliyin qorunması və münaqişələrin daha geniş miqyas almamasıdır. Bu baxımdan atəşkəs kimi mühüm addımların dəstəklənməsi ölkənin xarici siyasət kursunun məntiqi davamıdır.

Bununla yanaşı, Azərbaycan beynəlxalq hüquqa əsaslanan mövqeyini qoruyaraq, bütün tərəflərə bərabər və obyektiv yanaşma sərgiləyir. Bu isə ölkəmizin etibarlı tərəfdaş imicini daha da möhkəmləndirir və onu regionda mühüm diplomatik aktora çevirir.

**Bakı ABŞ və İsrail ilə yaxın münasibətlərə malikdir...**

Azərbaycanın nümayiş etdirdiyi mövqe həm də mühüm bir rakursdan diqqət çəkir - Bakı münaqişə tərəfləri ilə yaxın münasibətlərə malikdir. Xüsusilə, ötən ilin avqustundan bu yana Azərbaycan ilə ABŞ arasında yaxın strateji əməkdaşlıq əlaqələri güclənib. Bu il fevralın 10-da ABŞ-ın vitse-prezidenti Cey. Di.Vensin Bakıya səfəri çərçivəsində Azərbaycan ilə ABŞ arasında imzalanan Strateji Tərəfdaşlıq haqqında Xartiya münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunun göstəricisidir. Qeyd edək ki, Xartiya özündə bir sıra mühüm məqamları ehtiva edir - diplomatik əlaqələrin genişlənməsi, strateji iqtisadi münasibətlər sisteminin formalaşdırılması, müasir çağırışlara əsasən



dialoqun daha da gücləndirilməsi və bu kimi amillər Bakı-Vaşinqton əlaqələrinin keyfiyyətcə mühüm bir müstəviyə çatmasını təsdiqləyir.

Prezident Trampın son bir ildə artıq bir neçə dəfə Prezident İlham Əliyevlə görüşməsi, fərqli kontekstlərdə müzakirələrin aparılması, Cənubi Qafqazın yeni gələcəyinin formalaşdırılması istiqamətində Azərbaycanın irəli sürdüyü strateji yol xəritəsinin dəstəklənməsi, sülhün və sabitliyin qorunmasına xidmət edən yaxınlaşmaların təqdir olunması göstərir ki, Bakı-Vaşinqton əlaqələri sağlam və dinamik xarakter daşıyır. Azərbaycanı hər zaman özünün strateji tərəfdaşı kimi xarakterizə edən rəsmi Vaşinqton əməkdaşlığın çoxşaxəli olmasında maraqlı olduğunu ortaya qoyur.

Paralel olaraq, Azərbaycanın İsrail ilə də münasibətləri hər zaman dostluq müstəvisində inkişaf edib. Bakı ilə Təl-Əviv arasında yüksəksəviyyəli siyasi dialoq. İqtisadi münasibətlər mövcuddur. İsrail daim Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib və müdafiə sənayesi sahəsində ən yaxın strateji tərəfdaşlarından biri sayılıb.

Bütün bunlara baxmayaraq, Azərbaycan regionda münasibətlər sisteminin güc yolu ilə deyil, sülh yolu ilə tənzimlənməsinə dəstək verir - Bakı bu münaqişədə yalnız sabitləşdirici faktor rolunu oynamağa səy göstərir.

**İrana münasibət sadiq və ləyaqətli qonşuluq prinsipləri ilə tənzimlənir**

Eyni fikirləri İran barədə də demək olar - Azərbaycanın sadiq və ləyaqətli qonşuluq münasibətlərinə hörmətlə yanaşması sirr deyil. Bakı qonşuları ilə daima istər iqtisadi, istərsə də siyasi münasibətlərini hörmət və qarşılıqlı səmimiyyət üzərində qurur. Hələ fevralın son günündən başlayaraq Azərbaycan yalnız problemin həllinə fokuslanıb - hansısa bir tərəfə dəstək məsələsi gündəmə gətirilməyib. İranın Ali dini rəhbərinin həyatını itirməsi münasibətilə Bakı özünün rəsmi başsağlığını rəsmi Tehrana çatdırıb. Prezident İlham Əliyev ilk dövlət başçısı oldu ki, İranın Azərbaycandakı səfirliyinə gedərək matəm kitabına öz ürək sözlərini yazıb və başsağlığı verib.

Bakı bu münaqişdə mənəvi tərəfləri də unutmadı - İrana humanitar yardımların göndərilməsi bunun bariz sübutudur. Azərbaycanın İran ətrafında baş verənlərə münasibəti neytrallıq və qonşuluq praqmatizmi, suverenliyə hörmət üzərində qurulub. İrana endirilən hava zərbələri fonunda Azərbaycan qonşu ölkəyə humanitar yardım göndərən ilk dövlət oldu. Bu, sadəcə xeyriyyəçilik aktı yox, həm də dərindən düşünülüb-hesablanmış strateji addımdır. Regionun təhlükəsizliyində aktiv rol oynayan, sabitləşdirici faktor kimi qeyd edilən Bakı bu dəfə mənəvi qonşuluq prinsiplərinə də hörmətlə yanaşdığını hər kəsə nümayiş etdirdi. İrana sonradan humanitar yardımlar məhz bu addımından sonra gerçəkləşdi. Eləcə də, Azərbaycan hər zaman bildirdiyi kimi, regional sabitlik faktoruna bir nömrəli fəaliyyət kimi yanaşır - paralel olaraq İrana münasibətdə də mövqeyimiz aydın, dəyişməz və qətidir: Prezident İlham Əliyev hər zaman bəyan edib ki, Azərbaycan-İran sərhədi dostluq sərhədidir. Dövlət başçısı bildirib ki, biz heç vaxt öz ərazimizdən qonşu ölkələrə, o cümlədən İrana qarşı təhdidlərin yaranmasına imkan verməyəcəyik. Rəsmi Bakı bütünlüklə öz davranışlarında bu tezisləri təsdiqləyib və ötən dövrdə nəinki İran, digər region dövlətinə qarşı da heç bir təhdid və ya təhlükə formalaşdırılmayıb.

**Regionun sabitləşdirici faktoru...**

Beləliklə, illərdir ki, bəlli olan həqiqət növbəti dəfə təsdiqlənir - Azərbaycan regionda sabitləşdirici faktor, lider dövlət olması açıq nümunələrlə ortaya qoyulur. Rəsmi Bakı qonşu ölkələrdə baş verən hadisələri diqqətlə izləyir və bu kimi proseslərdən narahatlığını gizlətmir. Çünki regional sabitliyin pozulması iqtisadi layihələrə, enerji təhlükəsizliyinə və ümumilikdə insanların rifahına mənfi təsir göstərir. Azərbaycan bu riskləri nəzərə alaraq daim sülhün və təhlükəsizliyin tərəfdarı kimi çıxış edir. Eyni zamanda, Azərbaycan əməkdaşlıq platformalarının inkişafına xüsusi önəm verir. Regional dialoq, qarşılıqlı hörmət və ortaq maraqların qorunması ölkəmizin siyasətində əsas istiqamətlərdən biridir. Bu yanaşma sayəsində Azərbaycan yalnız öz maraqlarını deyil, bütövlükdə regionun sabitliyini təmin etməyə çalışan aktor kimi tanınır.

Nəticə etibarilə, Azərbaycan xarici siyasətində balanslı və prinsipial mövqe nümayiş etdirən dövlət kimi çıxış edir. Ölkəmiz bütün hallarda tərəflər arasında tarazlığı qorumağa, münasibətləri gərginləşdirmək deyil, əksinə, normallaşdırmağa çalışır. Bu yanaşma həm milli maraqlara xidmət edir, həm də beynəlxalq hüququn tələblərinə uyğundur.

Azərbaycan üçün münaqişələrin güc yolu ilə həlli qəbuledilməzdir. Ölkəmiz hesab edir ki, davamlı sülh yalnız dialoq, qarşılıqlı anlaşma və diplomatik vasitələrlə mümkündür. Bu səbəbdən rəsmi Bakı beynəlxalq arenada daim sülh təşəbbüslərini dəstəkləyir və bu istiqamətdə aktiv fəaliyyət göstərir.

***P. İSMAYILOV***

# Mütləq qələbə, mütləq qalib dövlət...



## Azərbaycan 44 günə beynəlxalq hüququ və tarixi ədaləti bərpa etdi...

XX əsrin sonundan etibarən dünyada yeni siyasi xəttlər formalaşmağa başladı. SSRİ-nin dağılmasının ardından yaranan yeni qütbləşmə, koordinasiya mərkəzlərinin dəyişməsi, qlobal enerji bazarının iqtisadi müstəvidə ön plana çıxması və bu kimi başqa şərtlər beynəlxalq aləmdə yeni tənzimləmələri qaçılmaz etdi. Artıq 3-cü onilliyinin başlaması ərəfəsində olduğumuz XXI əsrdə bu proses daha açıq və təhlükəli tendensiya alır. Hazırda dünyanın bir çox bölgəsində baş verən münaqişələr, müharibələr dünyada sabitliyi və təhlükəsizliyi təhdid edən ən başlıca problem kimi ön plana çıxır - bu müharibələr isə həm də özlüyündə əməkdaşlıq, iqtisadi inkişaf üçün ən böyük maneədir.

### Davam edən və sonu görünməyən müharibələr...

Qlobal təhlükəsizliyə təhdid yaradan müharibələr get-gedə daha da genişlənməkdədir. Diqqət yetirsək, Avrasiyada son 6 ildə baş verən proseslər istər siyasi, istərsə də iqtisadi münasibətlər sisteminə ağır zərbələr vurur, mümkün genişmiqyaslı layihələri gecikdirir. Məsələn, Ukrayna-Rusiya müharibəsi artıq 4-cü ilini arxada qoyub. Ötən 4 ildə hər iki ölkənin itkiləri, infrastrukturuna dəyən ziyan ölçüyəgəlməzdir - bu müharibənin hələ sonu görünmür. Ötən 4 ildə hər iki ölkənin iqtisadiyyatı bəlkə də, 10 illər ərzində bərpa oluna bilməyəcək qədər zərər görüb. Hərbi potensialına ağır zərbələr dəyib. Eləcə də, bu müharibə böyük bir coğrafiyada enerji təminatı ilə bağlı təhdidlər formalaşdırıb. Bu müharibə nəticəsində qlobal iqtisadiyyat böyük zərər görür - müharibə təzə başladığı illərdə ərzaq təhlükəsizliyi təhdid altına düşmüşdü, ölkələrin taxılla təminatı sual altında idi. Paralel olaraq müharibə nəticəsində milyonlarla insan qaçqın və məcburi köçkün durumuna düşüb. Müharibənin isə hələ də sonu görünmür.

Və ya hələlik atəşkəs halında olan Yaxın Şərq problemi... İlk saatlarında qısa müddətdə başa çatacağı düşünülən İranla ABŞ-İsrail arasında müharibənin artıq 40 gündür davam etməsi bütün sahələrə mənfi cəhətdən sirayət edir. Atəşkəs və sülh təşəbbüslərinin hələ hansı nəticə verəcəyi bəlli deyil, münaqişə tərəfi olan ölkələrlə yanaşı, dünya iqtisadiyyatına dəyən ziyan hesabagəlməzdir. Ən əsas məqam isə bu müharibənin də yekunlaşması məsələsi qeyri-müəyyənlik halındadır - tərəflər arasında konsorsium əldə edilmir, sülh üçün real addımlar sezilmir. Beləliklə, olduqca mühüm strateji əhəmiyyətə malik regionda qlobal təhlükəsizliyin təhdid halı yaşaması davam edir.

### Milli iradənin, dövlət qətiyyətinin göstəricisi, tarixi ədalətin bərpası...

6 il öncə Azərbaycan da Vətən müharibəsi nəticəsində işğal altında olan torpaqlarını azad etdi. Amma bu müharibə günümüzdə müşahidə etdiyimiz müharibələrdən həm mahiyyətinə, həm də digər parametrlərinə görə fərqlənir. İlk növbədə, Azərbaycan özünün haqq-ədalət savaşına qalxdı. Ermənistanın 30 il ərzində Azərbaycan torpaqlarını işğal altında saxlaması beynəlxalq hüququn açıq şəkildə pozulması idi. Buna baxmayaraq, dünya birliyi uzun illər bu fakt qarşısında susqunluq nümayiş etdirdi. Bəzi hallarda isə işğalçıya dolayısı və ya açıq dəstək göstərildi. Bu ikili standartlar Azərbaycan xalqını məyus etsə də, onu yolundan döndərə bilmədi. Rəsmi Bakı bütün bu illər ərzində problemin sülh yolu ilə həllinə üstünlük verdi. Danışıqlar aparıldı, beynəlxalq tribunalarda haqq səsimiz çatdırıldı. Lakin qarşı tərəfin destruktiv mövqeyi və təxribatları sülh imkanlarını tam tükəndirdi. Nəticədə, Azərbaycan öz haqqını döyüş meydanında bərpa etmək məcburiyyətində qaldı.

Vətən müharibəsində qazanılan qələbə bütün Azərbaycan xalqının qələbəsi idi. Azərbaycan dövləti öz gücünə, öz xalqına və öz liderinə arxalanaraq 30 illik işğala son qoydu. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan Vətən müharibəsi yalnız hərbi əməliyyatlar toplusu deyildi - bu, milli iradənin, dövlət qətiyyətinin göstəricisi və tarixi ədalətin bərpası idi. Bu, Ali Baş Komandanın qətiyyətli və düşünülmüş siyasətinin, xalqın birliyinin məntiqi nəticəsi oldu. Azərbaycan son 80 ildə müharibəni mütləq qələbə ilə başa vuran nadir dövlətlərdən biri kimi tarixə düşdü. Azərbaycan Prezidenti İlham Əliyev bu il yanvarın 13-də Ağdərə rayonunun Aşağı Oratağ kəndində Aşağı Oratağ, Çıldıran, Heyvalı və Çapar kəndlərinin sakinləri ilə görüşündə bildirmişdi ki, son 80 il ərzində Azərbaycan kimi tam və mütləq Qələbə qazanan ikinci ölkə olmayıb: "Müharibələr olub, münaqişələr olub, bu gün də davam edir. Amma heç biri tam və mütləq Qələbə ilə nəticələnməyib. Ancaq biz böyük xalq olaraq buna nail olduq, özü də cəmi 44 gün ərzində. Ondan sonra da bir gün ərzində".

### Azərbaycan Prezidentinin prinsipiallığı, iradəsi və qətiyyəti - qələbənin təminində ən zəruri şərtlər

Bəli, 2020-ci ilin Vətən müharibəsi və 2023-cü il antiterror tədbirləri Azərbaycanın rəşadətli ordusunun Ali Baş Komandanın rəhbərliyi altında apardığı zəfər yürüşü kimi tarixə düşdü. Azərbaycan Ordusu illərlə hazırlanan azadlıq planını mükəmməl şəkildə icra etdi. Prezident, Ali Baş Komandan İlham Əliyevin liderliyi ilə Azərbaycan Ordusu həm taktiki, həm də mənəvi üstünlüyü ələ aldı. 2023-cü iliin sentyabrında cəmisi 24 saat çəkən əməliyyat nəticəsində separatçı rejim darmadağın edildi - "Bakıda çay içəcəyik" deyənlər bu gün təcridxanalarda törətdikləri cinayətlərin cəzasını çəkirlər. Bu, təkcə hərbi qələbə deyildi - bu, ideoloji və mənəvi qələbə idi. Azərbaycan Prezidentinin prinsipiallığı, iradəsi və qətiyyəti bu qələbənin təmini üçün ən zəruri şərt kimi çıxış etdi. Hətta 30 illik işğal dövründə dövlət başçımız bu qətiyyətdən bir addım geri çəkilmədi - yorulmadan qələbəmizin siyasi müstəvisini formalaşdırdı. Bütün aparıcı beynəlxalq strukturlar Azərbaycan torpaqlarının işğal altında olduğunu təsdiqləyən sənədlər qəbul etdi - qlobal dünya Azərbaycanın haqlı mövqeyini təsdiqlədi və dəstəkədi. Azərbaycanın qazandığı tarixi qələbə ölkəmizin yeni inkişaf mərhələsinin əsasını qoydu. Bu zəfər güclü dövlətçilik, müasir ordu və mütləq qalib Ali Baş Komandan vəhdətinin real təcəssümü kimi tarixə yazıldı. Azərbaycan artıq yalnız öz torpaqlarını azad etmiş dövlət deyil, regionda yeni siyasi reallıqlar yaradan güc mərkəzidir. Bu qələbə sübut etdi ki, milli birlik, siyasi iradə və düzgün strategiya olduqda heç bir işğal əbədi ola bilməz. Azərbaycanın zəfər yolu davam edir və bu yol tariximizdə əbədi qalacaq.

***Pərviz SADAYOĞLU***

# Paytaxtımız qlobal şəhər gündəliyinin mərkəzində

## Yeni urbanizasiya fəlsəfəsinin formalaşdığı məkan

Mayın 17-22-də Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) müasir dünyanın ən aktual problemlərindən biri olan dayanıqlı və təhlükəsiz yaşayış mühitinin təmin olunmasına həsr edilən mühüm beynəlxalq platformadır. "Hamı üçün mənzil: təhlükəsiz və dayanıqlı şəhərlər və icmalar" mövzusu ətrafında təşkil olunan forum qlobal urbanizasiya proseslərinə yeni istiqamət vermək baxımından xüsusi əhəmiyyət daşıyır. Bu mötəbər tədbir şəhərsalma siyasətinin yalnız texniki və memarlıq aspektlərini əhatə etmir, eyni zamanda sosial rifah, inklüziv inkişaf və insan amilinin prioritetliyini ön plana çıxarır. Müasir şəhər modeli artıq yalnız infrastrukturla ölçülmür, burada əsas məqsəd insan üçün təhlükəsiz, rahat və davamlı həyat mühitinin yaradılmasıdır.

Forumun gündəliyinə salınmış əsas istiqamətlər - təhlükəsiz mənzil təminatı, dayanıqlı şəhər strukturlarının qurulması, ağıllı infrastrukturun inkişafı və inklüziv urbanizasiya qlobal çağırışlara cavab verən kompleks yanaşmanı əks etdirir. Bu çərçivədə innovativ şəhərsalma modelləri və yeni memarlıq həlləri təqdim olunacaq, şəhərlərin gələcəyinə dair strateji baxış formalaşacaq.

Azərbaycan üçün bu forum yalnız beynəlxalq tədbir statusu daşımır, ölkənin şəhərsalma sahəsində əldə etdiyi nailiyyətlərin nümayişi üçün də geniş imkan yaradır. Paytaxtda həyata keçirilmiş müasir şəhər layihələri və işğaldan azad olunmuş ərazilərdə tətbiq edilən "ağıllı kənd" konsepsiyaları urbanizasiya sahəsində yeni yanaşmanın praktiki nümunələri kimi təqdim olunur. Bu modellər texnoloji innovasiya, ekoloji tarazlıq və sosial rifahın uzlaşdırılması baxımından diqqət çəkir.

Qlobal statistika isə bu müzakirələrin nə qədər zəruri olduğunu aydın şəkildə göstərir. Dünyada milyardlarla insan qeyri-kafi yaşayış şəraitində həyat sürür, yüz milyonlarla insan isə evsizlik təhlükəsi ilə üz-üzədir. Urbanizasiya proseslərinin sürətlənməsi, iqlim dəyişikliklərinin təsiri və plansız tikinti bu problemləri daha da dərinləşdirir. Belə bir şəraitdə beynəlxalq səviyyədə ortaq həll variantlarının hazırlanması həyati əhəmiyyət daşıyır.




WUF13 bu baxımdan yalnız fikir mübadiləsi platforması kimi yox, həm də real həllərin formalaşdırıldığı qlobal əməkdaşlıq məkanıdır. Müxtəlif ölkələrdən olan mütəxəssislərin, dövlət nümayəndələrinin və beynəlxalq təşkilatların iştirakı yeni tərəfdaşlıqların qurulmasına, təcrübə mübadiləsinin genişlənməsinə və innovativ ideyaların tətbiqinə imkan yaradır. Forum ərəfəsində Azərbaycanın beynəlxalq əməkdaşlıq təşəbbüsləri də xüsusi diqqət çəkir. Afrika qitəsində keçiriləcək urbanizasiya forumuna göstərilən dəstək Azərbaycanın qlobal şəhər inkişafı proseslərində fəal iştirakını nümayiş etdirir. Bu addım ölkənin yalnız regional deyil, daha geniş coğrafiyada tərəfdaşlıq əlaqələrini gücləndirməyə yönəldiyini göstərir. Eyni zamanda, WUF13-ə hazırlıq çərçivəsində həyata keçirilən institusional yeniliklər Azərbaycanın bu sahədə sistemli yanaşma formalaşdırdığını sübuta yetirir. Tədbir davamlılığının idarə olunmasına dair beynəlxalq standartın milli səviyyədə tətbiqi bu istiqamətdə mühüm addım kimi qiymətləndirilir. Bu yanaşma davamlılıq prinsiplərinin yalnız nəzəri çərçivədə qalmamasını, real idarəetmə mexanizmlərinə çevrilməsini təmin edir.

Nəticə etibarilə WUF13 Azərbaycanın beynəlxalq mövqeyini möhkəmləndirən, şəhərsalma sahəsində əldə olunmuş nailiyyətləri qlobal miqyasda təqdim edən və gələcəyin dayanıqlı şəhər konsepsiyasının formalaşmasına töhfə verən strateji hadisə kimi xüsusi əhəmiyyət daşıyır. Bu forum vasitəsilə ölkə yalnız mövcud təcrübəsini nümayiş etdirmir, qlobal urbanizasiya proseslərinə təsir göstərmək imkanı da qazanır. Burada səsləndirilən ideyalar, təqdim olunan modellər və qurulan əməkdaşlıq əlaqələri gələcək illərdə şəhərlərin inkişaf trayektoriyasını müəyyənləşdirən əsas istiqamətlərdən birinə çevrilə bilər. Bakı bu platforma çərçivəsində beynəlxalq müzakirələrin mərkəzinə çıxaraq, şəhərsalma sahəsində yeni yanaşmaların formalaşdırıldığı aparıcı məkan statusu qazanır. Şəhərin son illərdə keçdiyi inkişaf yolu, müasir infrastrukturun qurulması ilə tarixi-mədəni irsin qorunması arasında yaradılan tarazlıq, eləcə də innovativ layihələrin həyata keçirilməsi onu qlobal miqyasda diqqət mərkəzinə gətirir. Bu amillər Bakını yalnız regional lider kimi yox, həm də beynəlxalq səviyyədə nümunəvi şəhər modelinə çevirir.

Beləliklə, Bakı, keçiriləcək bu mötəbər tədbir vasitəsilə qlobal urbanizasiya proseslərinin sadəcə izləyicisi kimi yox, həmin proseslərin istiqamətini müəyyən edən fəal iştirakçı kimi çıxış edir. Burada formalaşan ideyalar və qəbul olunan yanaşmalar gələcəyin şəhərlərinin necə olacağını müəyyənləşdirən əsas konseptual çərçivəni yaradır. Bu isə Azərbaycanın beynəlxalq nüfuzunun artmasına, regionda lider mövqeyinin möhkəmlənməsinə və qlobal miqyasda strateji əhəmiyyətinin yüksəlməsinə xidmət göstərir.



***Kəramət QƏNBƏROV,***
***Dövlət İdarəçilik Akademiyasının müəllimi***

# Qəti şəkildə rədd edilir!

## Azərbaycandakı Dini Konfessiya rəhbərləri BDAK-ın ölkəmizin reallıqlarını təhrif edən hesabatı ilə bağlı bəyanat yayıblar

Ölkəmizin uğurlarını sinirə bilməyən anti-Azərbaycan dairələr yenə iş başındadırlar. Respublikamızla bağlı növbəti absurd dəyərləndirmələr Amerika Birləşmiş Ştatlarının (ABŞ) Beynəlxalq Dini Azadlıq Komissiyasından (BDAK) gəlib. Belə ki, qurumun “2026-cı il İllik Hesabatı”nda 2025-ci ildə Azərbaycanda dini vəziyyətin qiymətləndirilməsi ilə bağlı istinadlar ölkəmizin reallıqları ilə ziddiyyət təşkil edir.

Bununla bağlı Azərbaycandakı Dini Konfessiya rəhbərləri bəyanat yayıblar. Bəyanatda qeyd edilib: “Biz, Azərbaycan Respublikasında yaşayan dini icmaların nümayəndələri, ABŞ-ın Beynəlxalq Dini Azadlıq Komissiyasının (BDAK) “2026-cı il İllik Hesabatı”nda yer alan 2025-ci ildə Azərbaycanda dini vəziyyətə dair əsassız iddialarla bağlı ciddi narahatlığımızı və dərin təəssüfümüzü ifadə edirik. Mövcud reallıqları nəzərə alaraq, hesabatdakı qiymətləndirməni qəti şəkildə rədd edirik”.

### Azərbaycan-ABŞ münasibətlərinin ruhuna uyğun gəlməyən yanaşma

Bəyanatda lobbi maraqlarının ifadəsi olan absurd dəyərləndirmənin Amerika Birləşmiş Ştatlarını təmsil edən qurumdan gəlməsinin məntiqinin başa düşülmədiyinə xüsusi diqqət çəkilib. Hesabatda yer alan əsassız iddialar Azərbaycan-ABŞ münasibətlərinin ruhuna qətiyyən uyğun gəlmir.

Xatırladaq ki, Azərbaycan müstəqillik qazandıqdan sonra ABŞ-la münasibətlərinin genişlənməsinə həmişə böyük önəm verib. Müəyyən mərhələlər, o cümlədən də Bayden administrasiyası dönəmi istisna olmaqla ikitərəfli əlaqələr hər zaman yüksək dinamikaya malik olub. Ağ Evdə administrasiya dəyişikliyindən sonra isə ikitərəfli münasibətlərdə Bayden dönəminin buzları əriyib və keyfiyyətcə yeni bir səhifə açılıb.

Bunu təsdiqləyən ən önəmli faktlardan biri ötən il avqustun 8-də Vaşinqtonda iki ölkənin prezidentləri tərəfindən “Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu”nun imzalanmasıdır. Sözügedən sənəddə konkret əməkdaşlıq istiqamətləri açıq-aydın təsbit edilib.

İkitərəfli münasibətlərdə izlənilən müsbət dinamika fonunda ABŞ-ı təmsil edən qurumun hesabatında Azərbaycan reallığına qərəzli baxışın ifadəsi olan iddiaların yer alması təəccüb doğurur. “BDAK-ın bu yanaşması Prezident Donald Trampın hakimiyyətə qayıdışından sonra müxtəlif sahələr üzrə ikitərəfli münasibətlərin gücləndirilməsi və ötən ilin 8 avqustunda Vaşinqtonda onun tarixi rolu ilə Azərbaycan və Ermənistan arasında sülh gündəliyinin irəlilədilməsi fonunda xüsusilə məyusedicidir.

Bu, həmçinin Azərbaycanın regional və beynəlxalq səviyyədə sülh və sabitliyin təşviqində rolunun tanınmasının nümayişi və qlobal miqyasda dinlərarası dialoqun təşviqinə sadiqliyinin sübutu olaraq, ölkəmizin ABŞ Prezidentinin rəhbərliyi altında yaradılmış Sülh Şurasına dəvət olunduğu və sonradan təsisçi üzv dövlət kimi həmin Şuraya qoşulduğu bir dövrdə narahatlıq doğurur”, - deyə Azərbaycandakı Dini Konfessiya rəhbərlərinin bəyanatında vurğulanır.

### Tarixdən gələn tolerantlıq ənənələrinə sadiqlik

Bəyanatda bildirildiyi kimi, Azərbaycan özünün əsrlərə dayanan müxtəliflik və multikulturalizm ənənəsi ilə fərqli mədəniyyətlər və dinlər arasında dialoqun, qarşılıqlı anlaşmanın və etimadın təşviqinə hər zaman sadiqdir. Azərbaycan Konstitusiyası ayrı-seçkiliyi açıq şəkildə qadağan edir və dinindən və etiqadından asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyini təmin edir. Bu hüquqi təminatlardan əlavə, Azərbaycan bütün vətəndaşlara dini, etnik və mədəni mənsubiyyətlərini qorumaq və daha da inkişaf etdirmək üçün şərait yaradır. Bu, dünyada din və ya etiqaddan sui-istifadə şəraitində təhlükəsizlik riskləri və çağırışların artması fonunda baş verir. Bəyanatda oxuyuruq: “Azərbaycan dərin köklü dini tolerantlıq mədəniyyətinin təzahürü kimi, habelə dindaxili və dinlərarası harmoniyaya sadiqliyin nümunəvi məkanı olaraq, məscidlərin, kilsələrin və sinaqoqların yanyana fəaliyyət göstərdiyi ölkələrdən biridir. İcmalarımız gündəlik həyatlarında belə bir firavan mühitdə yaşayır, hökumət və ya cəmiyyətin hər hansı müdaxiləsi olmadan dini etiqadlarını yerinə yetirirlər”.

Azərbaycanı fərqləndirən cəhətlərdən biri də ondan ibarətdir ki, ölkəmizdə dini məkanların və ibadət yerlərinin inşası, mühafizəsi və bərpasına xüsusi diqqət yetirilir. Bəyanatda bildirildiyi kimi, bu fəaliyyətlər yalnız məscidləri əhatə etmir, Bakıda Müqəddəs Məryəm katolik kilsəsinin yenidən qurulması və mühafizəsi, Müqəddəs II İoann Pavelin şərəfinə ikinci katolik kilsəsinin davam edən inşası, Kafedral Pravoslav Kilsəsinin bərpası, Zərdüştlük məbədinin yenidən qurulması və Kiş məbədinin bərpası qismində digər dinlərin ibadət məkanlarını da əhatə edir. Regionun ən böyük sinaqoqunun Azərbaycanda olması bir faktdır. Cəmiyyətimizin dini plüralizmə və inklüzivliyə hörmətinin təzahürü kimi İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin ilk toplantı evi 2025-ci ildə Azərbaycanda açılıb. Ölkəmizdəki dini konfessiya rəhbərlərinin bəyanatında narahatlıq hissi ilə vurğulanır ki, Azərbaycan hökumətinin bu səyləri hesabatda əks olunmayıb. BDAK-ın hesabatında Azərbaycanın işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələrində bütün tarixi və mədəni abidələrin fərq qoyulmadan təmir və bərpa səylərinin yanlış təqdim edilməsi xüsusilə təəssüf doğurur.

### Azərbaycanın sərhədləri aşan səyləri

Azərbaycanın uzun tarixə söykənən dini plüralizm və tolerantlıq ənənəsi tanınmış beynəlxalq dini liderlər tərəfindən mütəmadi şəkildə alqışlanıb.

Onların arasında Papa II İoann Pavel və Papa Fransisk və digər nümayəndələr yer alır. Papa Fransisk Azərbaycanı zorakı ekstremizmlə bölünmüş dünya üçün çoxkonfessiyalı model kimi təqdir edib. Onun 2016-cı ildə Bakıya səfərinin məhz Azərbaycanda Multikulturalizm ilində baş tutması Papanın ölkəmizdəki tolerantlığa və inklüzivliyə verdiyi yüksək qiymətin daha bir göstəricisidir. O, müxtəlif etiqadların sülh şəraitində yanaşı yaşadığı məkan kimi Azərbaycanın əhəmiyyətini vurğulayaraq, ölkəmizi dünya üçün nümunə adlandırıb.

Bundan əlavə, Əl-Əzhər Əl-Şərifin Böyük İmamı və Müsəlman Ağsaqqalları Şurasının sədri Əhməd Əl-Tayyib dəfələrlə Azərbaycanı dinlərarası harmoniya və İslam-daxili birlik nümunəsi kimi alqışlayıb.

Bəyanatda Azərbaycanın dini yerlərin mühafizəsi və bərpası səylərinin sərhədləri aşdığına xüsusi diqqət çəkilir. “Heydər Əliyev Fondunun Vatikan şəhərinin mədəni və xristian irsinin, o cümlədən Divarların Xaricində Müqəddəs Pavel Papa Bazilikasının fasadlarının bərpasında dəstəyi və iştirakı Müqəddəs Taxt-Tac tərəfindən minnətdarlıqla qarşılanıb.

Azərbaycan 2008-ci ildə Bakı Prosesi çərçivəsində yaradılmış, dayanıqlı sülh və inkişafın əsasları kimi dialoq və sosial inklüzivliyi təşviq edən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşəbbüskarı və ev sahibidir. Bu forum BMT Baş katibinin hesabatlarında mədəniyyətlərarası dialoqun təşviqi üzrə əsas qlobal platforma kimi dəfələrlə təqdir olunub və bu, BMT Baş Assambleyasının bir sıra qətnamələrində davamlı olaraq öz təsdiqini tapıb”, - deyə bəyanatda vurğulanıb.

***Mübariz ABDULLAYEV***

# Valyuta Fondunun nikbin ssenarisi

## Dayanıqlı sülh Cənubi Qafqazda ticarət və investisiya axınlarını genişləndirəcək

Beynəlxalq Valyuta Fondunun (BVF) missiyası Gürcüstanla IV Maddə üzrə məsləhətləşmələrin yekunlarına dair qiymətləndirməsində Cənubi Qafqaz üçün yeni münbit və sağlam əməkdaşlıq imkanlarının yaradıldığını bildirib. Fond hesab edir ki, Azərbaycanla Ermənistan arasında sülh sazişinin razılaşdırılması və davam edən inamlı sülh prosesi regionun geoiqtisadi simasını büsbütün dəyişdirməkdədir. Bu, həm iqtisadi-ticari, həm də investisiya və kommunikasiya bağlantıları üçün mühüm fürsətlər yaratmaqla, regionun inkişaf arxitekturasını möhkəmləndirəcək amildir. Dəyərləndirmələrə əsasən, Gürcüstandan yan keçən alternativ ticarət marşrutları bütün tərəflər üçün kommunikativ yol açmaqla Cənubi Qafqazın logistika landşaftını da əhəmiyyətli dərəcədə dəyişdirə bilər. Ümumilikdə, sülh ssenarisi bütün regionun investisiya cəlbediciliyini artırmaqla, uzunmüddətli inkişaf istiqamətlərini müəyyən edəcək unikal model hesab edilir.

Qiymətləndirmədə vurğulanır ki, geosiyasi qeyri-müəyyənlik əsas risk amili olaraq qalır. Xüsusilə Yaxın Şərqdə münaqişənin kəskinləşməsi İsrail və Fars körfəzi ölkələrindən turist axınlarının azalmasına, inflyasiyanın sürətlənməsinə və qlobal maliyyə şərtlərinin ağırlaşmasına gətirib çıxara bilər. Lakin münaqişənin uzun sürməsi əks təsirə - maliyyə və turist axınlarının Gürcüstanın xeyrinə yenidən bölüşdürülməsinə, eləcə də Orta Dəhliz üzrə tranzitin artmasına səbəb ola bilər.

### Ukrayna münaqişəsinin bitməsi regional dividendləri artıracaq

BVF Ukrayna münaqişəsinin sülh yolu ilə həlli ssenarisinin də bölgəyə təsirlərini qiymətləndirib. Dəyərləndirmələrə görə, bu müharibənin bitməsi də bölgədə yeni müsbət fraqmentasiyalar formalaşdıracaq. İlk növbədə, Qara dəniz logistikası ilə sıx bağlı olan Gürcüstanın miqrant axını, kapital və tranzit ticarətinin artmasından əldə etdiyi iqtisadi faydanın müəyyən qədər azalması ehtimal edilsə də, əlavə imkanlar daha çox faydaverici olacaq. Regional sabitliyin güclənməsi investorların etimadının möhkəmlənməsinə töhfə verəcək ki, bu da əlavə resurs potensiallarını səfərbər edəcək, yeni biznes icmalarını bölgəyə gətirəcək.

Həmin ssenari Cənubi Qafqazın digər ölkələri üçün də eyni ümidverici mühiti vəd edir. BVF hesab edir ki, Azərbaycan və Ermənistan Gürcüstan üçün yaxın tərəfdaş ölkələr kimi Avropa marşrutlarında ortaq yer alır, Qara dənizdən hərəkət edən logistika şaxələri hər iki ölkəni Tbilisi ilə sıx bağlayır. Bu səbəbdən Ukraynada sülhün bərqərar olması Gürcüstandan yan keçən nəqliyyat marşrutlarının axınını gücləndirməklə, bütövlükdə regionun hər 3 ölkəsinin iqtisadi dividendlər əldə etməsinə müsbət təsir göstərəcək. Bu, həm də Cənubi Qafqazda biznes və rəqabət mühiti ilə bağlı vəziyyəti də müsbətə doğru xeyli dəyişdirəcək.




### Dayanıqlı sülh və sabitlik naminə

BVF ilə yanaşı, digər qlobal institutların ehtimalları da Cənubi Qafqazın 3 ölkəsi arasında mühüm siyasi yaxınlaşma fonunda bölgədə yeni geoiqtisadi arxitekturanın formalaşacağına və sabitliyin möhkəmlənəcəyinə dərin inamı ehtiva edir. Nüfuzlu institut - “ING” analitiklərinin fikrincə, Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması yönündə atılan ardıcıl və iradəli addımlar regional əhval-ruhiyyəni xeyli müsbət yöndə dəyişdirməklə, mühüm siyasi amil kimi iqtisadi situasiyalara hədsiz pozitiv təsir edir. İlk növbədə, Ermənistan nəqliyyat blokadasından çıxmaq və regionun nəhəng marşrutlarına qoşulmaq fürsəti əldə edir. Ermənistan üçün ikinci mühüm şans dayanılqlı və uzunömürlü yanacaq təminatının qurulmasıdır. Regionda mürəkkəb vəziyyətin dərinləşməsi, digər amillər, eləcə də Ermənistanın hazırda qaz aldığı ölkələrin yanacağın qiymətini artırmaq xəbərdarlıqları bu ölkə üçün problemlər yaradır, ancaq digər çıxış yolu açılır - bu, Azərbaycanın enerji tədarükünü başlatmasıdır. Ən diqqətçəkən və faydalı məqam odur ki, Azərbaycanın yanacaq amilindən heç bir ölkəyə qarşı siyasi məqsədlər üçün istifadə etmir, neft və qaz ixrac etdiyi ölkələrə yalnız iqtisadi partnyorluq yanaşması sərgiləyir. Hətta qlobal bazar qiymətlərindən daha sərfəli müqavilələr təklif edir. Bu, Gürcüstanın timsalında uzun illərdir ki, nəzərə çarpır. Gürcüstanın təbii qaz təchizatını və enerji təhlükəsizliyini 90 faiz təmin edən Azərbaycan orta bazar qiymətindən də sərfəli tariflə yanacaq nəql edir. Belə yaxşı imkan indi də Ermənistan üçün yaradılmaqdadır. Ötən ilin sonlarından başlayaraq Azərbaycan Ermənistana gedən yüklərin daşınmasına geniş qapı açıb, bütün bölgələrdən gələn mallar məhdudiyyətlər olmadan maneəsiz İrəvana çatdırılır. Eləcə də Azərbaycan özü Ermənistana neft və neft məhsullarının təchizatına başlayıb. Bu iqtisadi humanizmdən erməni iqtisadiyyatı və sahibkarlar, sadə təchizatçılar, eləcə də regionun bütün ölkələri qazanır.

### Ermənistan üçün yeni fürsətlər

Azərbaycan və Ermənistan arasında əldə edilmiş razılaşmalara əsasən, nəqliyyat bağlantılarının ana xətti olan Zəngəzur dəhlizi quruculuğu da sürətlə irəliləyir, Orta Dəhlizin ana qovşaqlarından biri olan bu xətt regionda qarşılıqlı etimadın möhkəmləndirilməsi, sabitliyin qorunması və inteqrasiya proseslərinin inkişafı üçün yeni perspektivlər açır. Bu baxımdan yeni siyasi-geoiqtisadi konfiqurasiyalar mühitində Cənubi Qafqazda əməkdaşlıq formatının daha da möhkəmlənməsi təmin edilməkdədir. Bunu Azərbaycan Prezidentinin aprelin 6-da Gürcüstana səfəri zamanı rəsmi Tbilisi tərəfindən verilən bəyanatlarda da izlədik. Gürcüstanın baş nazirinin vurğuladığı kimi bölgə Şərqdən Qərbə doğru istiqamətlənən qlobal transnəqliyyat və enerji, logistika qovşaqlarının kəsişdiyi ən strateji coğrafiyalardan biridir. Çindən Xəzər dənizi regionu, Türkiyə-Qara dəniz və Avropa marşrutlarının ən mühüm həlqələri bu coğrafiyalardan keçir.

Ona görə də dayanıqlı sülh şəraitində regionda bərqərar olan dərin etimad mühiti Ermənistanı da çoxşaxəli bağlantılara cəlb edəcək. İrəvan Orta Dəhliz boyunca zəruri nəqliyyat infrastrukturlarına qoşulmaqla, logistika, azad ticarət və gömrük, sərhəd-keçid sistemlərinin rəqəmsallaşması, fiber-optik bağlantı və digət iqtisadi formatlarda yer almaq imkanı qazana bilər.

Beləliklə, Cənubi Qafqaz regionda sülh və sabitliyin dayanıqlılığı böyük bir coğrafiyada rifah və inkişaf arxitekturasını möhkəmləndirmiş olacaq. Regionda investisiya, müştərək biznes proqramları, nəqliyyat, logistika, tranzit həmrəyliyinin formalaşması çoxtərəfli iqtisadi platformalar yaratmaqla bütün tərəflərin faydalanmasına səbəb ola bilər.

***E.CƏFƏRLİ***

# Tramp NATO-ya güvənmir...

## Mark Ruttenin ABŞ lideri ilə qapalı görüşü vəziyyəti dəyişəcəkmi?

İranla müharibə ABŞ-ın Avropa müttəfiqləri ilə münasibətlərində müəyyən soyuqluq yaradıb. Aprelin 8-də ABŞ Prezidenti Donald Trampın Ağ Evdə NATO-nun Baş katibi Mark Rutte ilə görüşü də Vaşinqtonun İranla müharibə səbəbindən hərbi alyansın üzv dövlətləri ilə münasibətlərinin kəskinləşməsi fonunda keçirilib.



### Tramp müttəfiqlərin mövqeyindən məyusdur

Qapalı keçirilən görüşdə ABŞ-NATO münasibətləri, İranla əldə olunan atəşkəs və digər məsələlər müzakirə edilib. Görüşdə Donald Tramp müttəfiqlərin mövqeyindən məyus olduğunu deyib. Bu barədə NATO-nun Baş katibi məlumat verib: "Donald Trampla çox açıq və səmimi söhbətimiz oldu. Trampa əksər Avropa ölkələrinin onu dəstəklədiyini söylədim". ABŞ Prezidenti isə sosial media hesabında paylaşım edərək yazıb: "NATO ehtiyac duyduğumuz zaman yanımızda deyildi və yenidən ehtiyac duysaq da, olmayacaq".

Xatırladaq ki, İranla müharibənin gedişində Donald Tramp NATO müttəfiqlərini kəskin tənqid edib və ABŞ-ın alyansdan çıxa biləcəyinə dair fikirlər səsləndirib. Lakin bundan əvvəl də NATO daxilində müəyyən ziddiyyətlər var idi. Tramp ABŞ-da hakimiyyətə qayıtdıqdan sonra üzv ölkələr qarşısında hərbi xərclərin artırılmasını bir tələb kimi qoyub. Bu tələbin səbəbi alyansın xərclərinin böyük hissəsinin ABŞ-ın "çiyinlərində" olması ilə bağlıdır. Bundan sonra bir sıra Avropa ölkələri müdafiə xərclərini artırıblar. Ancaq problem tam həllini tapmayıb. Bunun ardınca, Tramp İranla müharibədə NATO müttəfiqlərinin ABŞ-a dəstək verməməkdə ittiham edir. Məsələn, Parisin ABŞ hərbi təyyarələrinin Fransanın hava məkanı ilə İsrailə uçmasına icazə verməməsi Ağ Ev rəhbərini hiddətləndirmişdi. Tramp özünün "Truth Social" şəbəkəsindəki səhifəsində yazıb: "Fransa hərbi yüklərlə İsrailə yollanan ABŞ təyyarələrinin öz ərazisi üzərindən uçmasına icazə vermədi". Onun sözlərinə görə, Fransa bu addımları ilə İrana kömək göstərib. D.Tramp ABŞ-ın bunu unutmayacağını da söyləyib. Fransanın xarici işlər naziri Jan-Noel Barro isə ABŞ Prezidenti Donald Trampın NATO müttəfiqlərinə yönəlmiş təhdidlərinə cavab olaraq bildirib ki, Vaşinqtonun Avropa ölkələrinin hərbi xərclərini artırması ilə bağlı təzyiqləri əslində bir imkandır. Onun fikrincə, bu, NATO daxilində Avropanın rolunun gücləndirilməsi və alyansın daha çox avropalaşdırılması üçün şərait yaradır.

### Müttəfiqlər "Hörmüz" koalisiyası üçün Trampa dəstək vermədi

ABŞ-ın Hörmüz boğazında gəmiçiliyi bərpa etmək üçün koalisiya yaratmaq cəhdləri də nəticə vermədi. Amerikanın tərəfdaşlarının bəziləri koalisiyaya qoşulmaqda tərəddüd edib, bəziləri isə "yox" cavabı verib. Mənbələr bildirib ki, Tramp administrasiyası Böyük Britaniya, Fransa, Almaniya, İtaliya, Avstraliya, Kanada, Körfəz ölkələri və İordaniyanı belə bir ittifaqa daxil etməyə çalışıb. ABŞ eyni təkliflə Yaponiya və Cənubi Koreyaya da müraciət edib. Lakin Almaniya, İtaliya və Yaponiya liderləri bölgəyə dəniz gəmiləri göndərməyi istisna edibər. Fransa da Vaşinqtona müsbət cavab verməyib. Bundan əvvəl Avropa İttifaqının ali nümayəndəsi Kaya Kallas Aİ xarici işlər nazirlərinin Hörmüz boğazına hərbi gəmilər göndərməkdən imtina etdiyini açıqlamışdı. Donald Tramp isə NATO müttəfiqlərini Hörmüz boğazının təhlükəsizliyini təmin etməkdən imtina etdikləri təqdirdə "çox pis bir gələcək" ilə üzləşə biləcəkləri barədə xəbərdar edərək, onları Avropanın əsas dəniz dəhlizini yenidən açmaq üçün Amerikanın səylərini dəstəkləməyə çağırmışdı.

Xarici medianın məlumatlarına görə, Avropada artan müqavimət bir neçə səbəbdən qaynaqlanıb: müharibədən əvvəl ABŞ-la kifayət qədər məsləhətləşmələrin aparılmaması, Vaşinqtonun məqsədləri ilə bağlı qeyri-müəyyənlik və Trampın müttəfiqlərə qarşı sərt ritorikası. Avropalı yüksək vəzifəli müdafiə rəsmisinin sözlərinə görə, əsas problem ABŞ-ın hərəkətləri ilə bağlı aydınlığın olmaması və münaqişə başlamazdan əvvəl demək olar ki, heç bir ciddi müzakirələrin aparılmamasıdır. Digər bir rəsmi isə qeyd edib ki, NATO-nun Şərq cinahında yerləşən ölkələr üçün prioritet məsələ öz ərazi müdafiəsinin təmin olunmasıdır.

### Ankara sammiti nə vəd edir?

Bütün bunların fonunda alyansın 7-8 iyul tarixlərində Ankarada keçirilməsi planlaşdırılan sammitinin əhəmiyyəti İran ətrafındakı gərginlik və sonradan Vaşinqtonun NATO-ya qarşı sərt tənqidləri fonunda daha da artıb. İlin əvvəlində Türkiyə paytaxtında keçirilməsi planlaşdırılmış sammitdə müdafiə imkanlarının gücləndirilməsi və modernləşdirilməsi, kiber və enerji təhlükəsizliyi, vacib infrastrukturun qorunması, transatlantik münasibətlərin gələcəyi və müdafiə xərclərinin bölüşdürülməsi kimi mövzuların müzakirə ediləcəyi gözlənilirdi. Lakin "Epik qəzəb" əməliyyatının başlanması və Ağ Evin NATO müttəfiqlərindən gözlənilən dəstəyi təmin edə bilməməsi sammitin gündəliyini kökündən dəyişdirib. Belə ki, İtaliya bu yaxınlarda ABŞ-ın Siciliyadakı hərbi bazaya təyyarələrin enməsi tələbinə mənfi cavab verib, İspaniya isə müharibə ilə əlaqəli əməliyyatlar üçün öz bazalarından və ya hava məkanından istifadəyə icazə verməkdən imtina edib. Böyük Britaniya, Fransa və Almaniya da daxil olmaqla digər müttəfiqlər rollarını regional tərəfdaşlara müdafiə dəstəyi ilə məhdudlaşdırır və gərginliyin azaldılmasına çağırırlar.

Şimali Atlantika Alyansının dəstəyinin olmadığını tənqid edən ABŞ Prezidenti Donald Tramp isə Vaşinqtonsuz NATO-nu "kağız pələng" adlandırıb və belə bir sual verib: "Əgər onlar bizim tərəfimizdə deyillərsə, biz niyə onların yanında olmalıyıq?". Təsadüfi deyil ki, bir neçə gün öncə ABŞ Dövlət katibi Marko Rubio Vaşinqtonun İran müharibəsindən sonra NATO-nun dəyərini yenidən qiymətləndirə biləcəklərini vurğulayıb. O, "FOX News" telekanalına verdiyi müsahibədə qeyd edib: "Bu münaqişə başa çatdıqdan sonra NATO ilə münasibətləri yenidən nəzərdən keçirməli olacağıq. Alyansın ölkəmiz üçün dəyərini yenidən nəzərdən keçirmək lazım gələcək. Nəticə etibarilə, bu, Prezidentin verəcəyi qərardır". Rubio NATO müttəfiqlərini ABŞ-ın hərbi bazalardan istifadə tələblərini rədd etdiklərinə görə tənqid edərək deyib: "Biz onlardan hava hücumları keçirməyi istəmirik. Onların hərbi bazalarından istifadə etməyə icazə verilməsinə ehtiyac duyduğumuz vaxtda rədd cavabı alırıq. Bəs biz niyə NATO-dayıq?".

Beləliklə, Ağ Evin mövqeyi hərbi alyansın gələcəyini əhəmiyyətli dərəcədə aktuallaşdırıb və onun yeni fəaliyyət istiqamətləri iyul ayında Türkiyə paytaxtında müəyyən ediləcək. Bu şəraitdə Ruttenin Trampla görüşündə ABŞ liderini alyansın gələcəyi ilə bağlı mənfi yanaşmasından çəkindirməyə çalışdığı şübhə doğurmur.

*N.BAYRAMLI*

# Atəşkəsdən sonra...

## Rusiya ilə Ukrayna arasında danışıqlar bərpa oluna bilərmi?

ABŞ-la İran arasında atəşkəsin əldə edilməsi Rusiya-Ukrayna danışıqlarının bərpasına şərait yarada bilər. Çünki ABŞ-ın İranla müharibəyə diqqət ayırması Kiyevə hərbi dəstəyi müəyyən qədər azaltmışdı. Bu da Rusiyanın artan hücumları qarşısında Ukraynanın vəziyyətini çətinləşdirib. Lakin Vaşinqtonun Tehranla atəşkəs razılığı nəticəsində vəziyyəti dəyişmək mümkündür.

**Vens: İndiyədək ciddi irəliləyiş əldə olunub**

Təsadüfi deyil ki, ABŞ-ın vitse-prezidenti Ceyms Devid Vens Rusiya-Ukrayna müharibəsinin nizamlanması istiqamətində ciddi irəliləyiş əldə olunduğunu və danışıqlar prosesinin başlanğıcından bəri Moskva ilə Kiyevin atəşkəs şərtləri ilə bağlı mövqelərinin xeyli yaxınlaşdığını bildirib. "Biz əhəmiyyətli irəliləyiş əldə etmişik. Əvvəlcə Rusiya və Ukraynanı münaqişəyə son qoymaq üçün heç olmasa nə istədiklərini ifadə etməyə inandıra bilmirdik. İndi buna nail olmuşuq. Ukrayna və Rusiyadan yazılı bəyanatlar almışıq, zaman keçdikcə onların mövqeləri daha da yaxınlaşır", - deyən Vensin sözlərinə görə, tərəflərin mövqeləri hələ tam uyğunlaşmasa da o, danışıqların perspektivinə nikbin baxır. Danışıqlar artıq "bu və digər istiqamətdə bir neçə kvadratkilometr ərazi ilə bağlı müzakirələrə" qədər irəliləyib. Vitse-prezident onu da vurğulayıb ki, münaqişənin həllinə maraq göstərməyən Avropa siyasi rəhbərliyinin mövqeyi Vaşinqtonda məyusluq doğurur.

**Rusiya üçtərəfli danışıqların bərpa olunmasını yubatmayacaq**

Moskva da Ukrayna ilə bağlı danışıqların bərpasını təxirə salmağı düşünmür. Baxmayaraq ki, vəziyyət Amerika Birləşmiş Ştatlarının İranla dialoq üçün kimi təyin etməsindən asılı ola bilər. Rusiya Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Rodion Miroşnik bildirib ki, Ukrayna üzrə üçtərəfli danışıqların gedişi böyük ölçüdə Ağ Evin Tehranla dialoq üçün məhz kimi nümayəndə təyin edəcəyindən asılı olacaq. Onun sözlərinə görə, Rusiya üçtərəfli danışıqların bərpa olunmasını yubatmayacaq. Hələ mart ayında Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov Rusiya və Ukrayna arasında ABŞ-ın iştirakı ilə danışıqlarında "fasilə verildiyini" açıqlamışdı. Miroşnik deyib ki, bu formatda danışıqlar aparmaq üçün 3 tərəfin - Rusiya, ABŞ və Ukraynanın razılığı tələb olunur: "İndi çox şey ABŞ-ın İranla danışıqlarında onları kimin təmsil edəcəyi ilə bağlı qərarından asılıdır. Əgər söhbət eyni danışıqçılardan gedirsə, proses müəyyən qədər gecikə bilər. Amma bu, Ukraynada nizamlanma üçün danışıqlar yolunda davam etmək və ya irəliləmək üçün fundamental manеə yaratmır. Hər halda, inanıram ki, Rusiya tərəfdən danışıqlar prosesinin bərpasında heç bir manеə və ya gecikmə olmayacaq".

**Qarşılıqlı hücumlar davam edir**

Hazırda tərəflər bir-birinə hücumları davam etdirir. Belə ki, dünən Rusiya ordusunun yalnız Ukraynanın Xerson, Xarkov və Zaporojye vilayətlərinə hücumları nəticəsində 2 nəfər ölüb, daha 11 nəfər yaralanıb. Xerson Vilayət Hərbi Administrasiyasının rəhbəri Aleksandr Prokudinin məlumatına görə, Rusiya qoşunları regionu atəşə tutub, nəticədə 4 nəfər, o cümlədən 2 uşaq xəsarət alıb. Öz növbəsində, Xarkov Vilayət Hərbi Administrasiyasının rəhbəri Oleq Sinequbov bildirib ki, son sutka ərzində Rusiya ordusu pilotsuz uçuş aparatları və idarə olunan raketlərdən istifadə edərək vilayətin 18 yaşayış məntəqəsinə zərbələr endirib. Bildirilib ki, 1 nəfər ölüb, daha 3 nəfər yaralanıb. Zaporojye Vilayət Hərbi Administrasiyasının rəhbəri İvan Fedorov qeyd edib ki, Zaporojyeyə hücum nəticəsində 1 nəfər həlak olub, daha 4 nəfər xəsarət alıb.

Ukrayna isə ilhaq edilmiş Krımın Feodosiya şəhərindəki "Dəniz Neft Terminalı" SC-nin neft bazasını pilotsuz uçuş aparatları ilə hücuma məruz qoyub və müəssisədə yanğın baş verib. Yerli sakinlər partlayışlar və ardınca baş verən yanğın barədə məlumat veriblər. İki rezervuar yanıb, ümumilikdə yanğın bir neçə kilometr məsafədən görünüb. Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı bəyan edib ki, Krımdakı "Dəniz Neft Terminalı" SC Krım yarımadasına və Ukraynanın cənubunun müvəqqəti işğal olunmuş ərazilərinə dəniz yolu ilə yanacaq-sürtkü materiallarının tədarükünün əsas qovşağıdır.

Ukrayna Silahlı Qüvvələrinin Baş komandanı Aleksandr Sırski bəyan edib ki, ordu strateji təşəbbüsü qoruyub saxlayır və Rusiya qoşunlarının genişmiqyaslı hücuma başlamasının qarşısını alır. Onun sözlərinə görə, Ukrayna Silahlı Qüvvələrinin üstünlüyünün əsas amillərindən biri pilotsuz uçuş aparatları bölmələridir. Bu bölmələr hazırda düşmənə ən geniş miqyasda və təsirli zərbələr vurur. Sırski qeyd edib ki, mart ayında Ukrayna pilotsuz sistem bölmələri tərəfindən vurulan Rusiya ordusunun şəxsi heyətinin ümumi itkisinin nisbəti 29 faiz artıb: "2025-ci ilin dekabrından başlayaraq ardıcıl dörd aydır ki, pilotsuz sistem bölmələrimiz Rusiya ordusunun səfərbər etdiyindən daha çox şəxsi heyəti zərərsizləşdirib".

Baş komandanın bildirdiyinə görə, artıq pilotsuz hərbi bölmələr orta hesabla gündə 11 mindən çox döyüş tapşırığını yerinə yetirir. Bundan əlavə, mart ayının nəticələrinə əsasən fevral ayının statistikası ilə müqayisədə 50 faiz daha çox təsdiqlənmiş hədəf vurulub, onların sayı 150 mindən çoxdur.

**Zelenski Putinlə harada görüşməyi təklif edir?**

Bu yaxınlarda Ukrayna lideri Zelenski Pasxa bayramı münasibətilə atəşkəsin elan olunmasını təklif etmişdi. O ümid edirdi ki, ABŞ Kiyev və Moskva arasında "Pasxa atəşkəsi" təklifini dəstəkləyəcək. "Ümid edirəm ki, ABŞ qətiyyətli qalacaq və Rusiyanı üçtərəfli görüşə qoşulmağa və sülh bağlamağa inandırmağa kö-



mək edəcək. Mən bunu demişəm və bu gün də təkrar edirəm: biz Pasxa bayramı günlərində atəşkəs təklif etdik. Ümid edirik ki, ABŞ bunu dəstəkləyəcək. Biz Rusiyadan cavab gözləyirik", - deyə o söyləyib. Lakin Rusiya tərəfi bunu rədd edib və təklifə Ukrayna ərazisinə güclü hücumlarla "cavab" verib. Zelenskinin "Pasxa atəşkəsi" ilə bağlı Roma Papası XIV Leo ilə telefon danışığı da heç bir nəticə verməyib.

Belə olan halda, Ukrayna Rusiyaya "enerji atəşkəsi" təklifi irəli sürüb. "Əgər Rusiya enerji sektorumuza hücumları dayandırmağa hazırdırsa, biz də eyni şəkildə cavab verməyə hazır olacağıq. Amerikalılar vasitəsilə belə bir təklifi Rusiya tərəfinə çatdırmışıq", - deyə Prezident vurğulayıb. Lakin rəsmi Moskva atəşkəs təkliflərinə münasibət bildirməyib.

Ona görə də, Zelenski hesab edir ki, Ukraynanın Rusiyanın gündəlik hücumlarına qarşı tab gətirməsi üçün təcili olaraq Amerikanın əlavə "Patriot" sistemlərinə ehtiyacı var. Zelenski Kiyevin hələ də ballistik raketləri zərərsizləşdirmək üçün bu sistemlərə təsirli alternativinin olmadığını vurğulayıb. Bununla belə, Ukrayna lideri İtaliyanın RAI radiostansiyasına müsahibəsində Vladimir Putinlə görüşməyə hazır olduğunu bəyan edib: "Əlbəttə ki, Moskvada və ya Kiyevdə yox. Lakin görüşə biləcəyimiz bir çox yer var, məsələn, Yaxın Şərqdə, Avropada, ABŞ-da". O, həmçinin ABŞ-nin Yaxın Şərqə yönəlmiş diqqəti səbəbindən Rusiya ilə üçtərəfli görüşün təxirə salındığını, lakin prosesin yenidən başlayacağını vurğulayıb.

Ukrayna Prezidenti Ofisinin rəhbəri Kirill Budanov isə "Bloomberg"ə açıqlamasında bildirib ki, ABŞ Prezidentinin elçisi Stiv Uitkoff və sahibkar Cared Kuşnerin rəhbərlik etdiyi Amerika nümayəndə heyəti 12 aprelədən sonra Kiyevə səfər edə bilər. Onun sözlərinə görə, nümayəndə heyətinin tərkibində respublikaçı senator Lindsi Qremin olması da mümkündür. Budanov əlavə edib ki, Amerika nümayəndə heyətinin səfərindən sonra Ukrayna daha əhəmiyyətli təhlükəsizlik zəmanətləri ala bilər.

*N.BAYRAMLI*

# Razılaşma baş tutmasa...

## ABŞ-İran atəşkəsindən sonrakı saatlar...

### Livan məsələsi mübahisə predmetinə çevrildi

ABŞ ilə İran arasında aprelin 10-na nəzərdə tutulmuş görüşlə bağlı razılaşma pozula bilər. Daha doğrusu, iki ölkə arasında razılaşdırılmış atəşkəs başlamadan yekunlaşmaq kimi bir təhdid yaşayır. Buna ilkin səbəb kimi atəşkəsdən sonra Livana edilmiş hücumlar göstərilir. Belə ki, aprelin 8-də İran ilə ABŞ arasında Pakistanın vasitəsi ilə əldə edilmiş atəşkəs razılaşmasında Livanın istisna olunması müzakirə predmetinə çevrilib. Xatırladaq ki, İsrail ordusunun sözçüsü Nadav Şoşani aprelin 8-də Livanın paytaxtı Beyrutda, eləcə də ölkənin şərqində və cənubunda İran tərəfindən dəstəklənən "Hizbullah"a məxsus 100-dən çox komandanlıq mərkəzinə və hərbi bazaya 10 dəqiqə ərzində zərbələr endirildiyini bəyan edb. Hücumda təxminən 50 İsrail qırıcı təyyarəsi iştirak edib. Livan təhlükəsizlik mənbələri isə 150-dən çox hücum barədə məlumat verib ki, bunların çoxu Beyrutda qeydə alınıb. İsrail ordusunun məlumatına görə, hədəfə alınan "Hizbullah" infrastrukturunun əksəriyyəti yaşayış məntəqələrində yerləşib.

Öz növbəsində, İsrailin müdafiə naziri İsrael Katz video açıqlamasında 2024-cü ilin sentyabr ayından bəri "Hizbullah"a qarşı "ən kütləvi hücum" elan edib. Daha sonra Livanda minlərlə peycer və radio eyni vaxtda partlayıb, onlarla insan həlak olub, yaralanıb.

Livan Səhiyyə Nazirliyinin məlumatına görə, İsrailin hava hücumları nəticəsində ən azı 182 nəfər ölüb, təxminən 890 nəfər yaralanıb. BMT-nin Baş katibi Antonio Guterreş hücumları qətiyyətlə pisləyərək, onları "uşaqlar da daxil olmaqla yüzlərlə mülki şəxsin ölümünə və yaralanmasına" səbəb olan və mülki infrastruktura zərər verən "kütləvi hücumlar" adlandırıb.

Livanın Baş naziri Nəvaf Salam İsrailin hücumlarının sıx məskunlaşmış yaşayış məntəqələrinə, xüsusən də Beyrutda silahsız mülki şəxslərin həyatına son qoyduğunu bildirib.

**İran etiraz edir...**

Beləliklə, razılaşmanın ilk günündə baş verənlər tərəflər arasında yenidən fikir ayrılığı yaradıb. İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqir Qalibaf tərəfdaşlarla razılaşdırılmış çərçivə sazişinin şərtlərinin pozulması ilə bağlı kəskin bəyanatla çıxış edib. Parlament sədri Livana edilən hücumlar, İranın hava məkanının pozulması və uranın zənginləşdirilməsi hüququnun inkar edilməsini razılaşmanın 3 əsas bəndinin pozulması kimi qiymətləndirib.

Qalibaf bildirib ki, İran tərəfi 10 bəndlik planla bağlı prosesi əvvəldən etimadsızlıqla izləyib və ABŞ gözlənildiyi kimi, danışıqlar masasına oturmazdan əvvəl öz öhdəliklərinə sadiq qalmayıb.

O qeyd edib ki, ABŞ prezidentinin şəxsən işlək baza kimi qəbul etdiyi planın icrası artıq sual altındadır. Sədr vurğulayıb ki, danışıqlar başlamazdan əvvəl prinsiplərin bu dərəcədə tapdalanması mövcud şəraitdə həm qarşılıqlı atəşkəsin, həm də diplomatik təmasların mahiyyətini itirdiyini göstərir.

Xatırladaq ki, ABŞ-ın vitse-prezidenti C.D. Vens Vaşinqtonun İranın nüvə proqramı ilə bağlı mövqeyində dəyişiklik ehtimalını açıqlayıb. Onun sözlərinə görə, əgər Tehran danışıqlarda səmimi və konstruktiv yanaşma sərgiləyərsə, ABŞ uranın zənginləşdirilməsindən tam imtina tələbinə yenidən baxa bilər.

**"Top ABŞ-dadır"...**

İranın xarici işlər naziri Abbas Əraqçi ABŞ-a açıq və sərt mesaj ünvanlayıb. İranlı diplomat bildirib ki, İran-ABŞ atəşkəs şərtləri artıq aydındır və Vaşinqton seçim etməlidir: ya atəşkəsə sadiq qalmalı, ya da İsrail vasitəsilə davam edən müharibə xəttini seçməlidir. Onun sözlərinə görə, ABŞ bu iki siyasəti eyni anda həyata keçirə bilməz. Əraqçi əlavə edib ki, dünya Livanda baş verənləri, xüsusilə mülki itkiləri diqqətlə izləyir və bu fon ABŞ-ın mövqeyini daha da kritik edir. O vurğulayıb ki, artıq "top ABŞ-dadır" və beynəlxalq ictimaiyyət Vaşinqtonun öz öhdəliklərinə əməl edib-etməyəcəyini müşahidə edir. Nazirin fikrincə, hazırkı mərhələdə veriləcək qərarlar yalnız region üçün deyil, qlobal sabitlik üçün də həlledici rol oynaya bilər.

**Vaşinqton Livansız razılaşma istəyir...**

Vaşinqton isə Livanla bağlı şərti qətiyyətlə inkar edir - Livanın danışıqlar predmeti olmadığı fikrindədir. ABŞ Prezidenti Donald Tramp deyib ki, İsrailin Livana zərbələrinin dayandırılması şiə "Hizbullah" hərəkatı səbəbindən İranla atəşkəs razılaşmasına daxil edilməyib.

ABŞ-ın vitse-prezidenti C.D Vens də bildirib ki, İranla atəşkəs müzakirə edilərkən ABŞ Tehrana İsrailin Livan ərazisinə hücumlarını dayandırmaq üçün heç bir vəd verməyib: "Düşünürəm ki, bu, bir anlaşılmazlıqdır. İranlılar atəşkəsin Livanı əhatə etdiyini düşünürdülər, amma elə deyil. Biz heç vaxt bu



vədi verməmişik."

ABŞ vitse-prezidentinin sözlərinə görə, İsrail iki ölkə arasında İrana qarşı müharibəyə son qoymaq üçün danışıqların uğurla başa çatmasını təmin etmək üçün "Livanda müəyyən təmkinliliyi qəbul etməyi təklif edib".

**Atəşkəsdə Livan var? - Pakistan səfiri təsdiqlədi**

Qeyd edək ki, Pakistanın ABŞ-dakı səfiri Rizvan Səid Şeyx rəsmi olaraq təsdiqləyib ki, Livan ABŞ, İran və əlaqədar tərəflər arasındakı atəşkəs razılaşmasının bir hissəsidir. Səfir bu barədə CNN-in efirində danışıb. "Əldə edilmiş razılaşmalara və Pakistanın vasitəçilik roluna əsasən, Livan açıq şəkildə atəşkəs razılaşması çərçivəsinə daxil edilib. Bu məsələ tərəflər tərəfindən tam razılaşdırılıb və bu barədə heç bir qeyri-müəyyənlik yoxdur", - səfir bildirib.

O əlavə edib ki, İslamabad son danışıqlar zamanı atəşkəsin əhatəli olmasının zəruriliyini vurğulayıb və bura Livanda hərbi əməliyyatların tamamilə dayandırılması da daxildir.

Şeyx Pakistan, ABŞ və İran rəsmiləri arasında aparılan danışıqlara işarə edərək vurğulayıb ki, bu məsələnin əleyhinə olan hər hansı yozum ilkin razılaşmanın mətni ilə ziddiyyət təşkil edir.

"Pakistan bu prosesi asanlaşdıran ölkələrdən biri kimi Livanın atəşkəsin əhatə etdiyi bölgələr siyahısında açıq şəkildə qeyd edildiyinin şahidi olub. Biz hesab edirik ki, Livanı əhatə etmədən bu razılaşmanın tam icrası mümkün olmayacaq", - o sözlərini yekunlaşdırıb.

Fransa Prezidenti Emmanuel Makron da hesab edir ki, ABŞ və İran arasında əldə edilən atəşkəs razılaşması Livana da şamil edilməlidir. O, bunu İran Prezidenti Məsud Pezeşkian və ABŞ Prezidenti Donald Trampla telefon danışıqlarından sonra X hesabında paylaşıb: "Ümid edirəm ki, atəşkəs Livan da daxil olmaqla, bütün münaqişə meydançalarında münaqişənin bütün tərəfləri tərəfindən tam şəkildə riayət olunacaq. Bu, bu atəşkəsin etibarlı və davamlı olması üçün zəruri şərtdir". O, əldə edilən razılaşmanın "ən yaxşı həll yolu olmaqla Yaxın Şərqdə təhlükəsizliyi təmin edəcək hərtərəfli danışıqlara yol açmalı olduğuna" əmindir. Fransa prezidenti qeyd edib ki, o, bu məsələni Qətər, BƏƏ, Livan və İraq liderləri ilə də müzakirə edib.

**Hörmüz yenidən bağlandı...**

İran isə artıq əməli fəaliyyətə keçib - belə ki, İran dövlət xəbər agentliyi "Fars"ın məlumatına görə, Livana endirilən zərbələrə cavab olaraq Tehran Hörmüz boğazından gəmilərin keçidini yenidən bloklayıb. Medianın məlumatına görə, atəşkəsin qüvvədə olduğu bir neçə saat ərzində boğazdan yalnız 2 neft tankeri keçib. Halbuki İran boğazdan gündə 10 gəminin keçməsinə icazə verməк və onlardan ödəniş almaq niyyətində idi. Qeyd edək ki, dünyanın ən vacib neft daşıma arteriyalarından biri vasitəsilə neftin gəmilərlə daşınmasının bərpası Trampın müvəqqəti atəşkəs razılaşmasından əvvəlki son həftələrdə İrana qarşı əsas tələbi idi.

**Danışıqlar hansı "sənəd" üzərindən aparılacaq?**

Danışıqların hansı "sənəd" üzərindən aparılması məsələsində də fikirlər haçalanır. ABŞ administrasiyası İranla danışıqlar fonunda təqdim olunan ilkin planı kəskin tənqid edib və onu "tamamilə qəbulolunmaz" adlandırıb. Ağ Evin açıqlamasına görə, İran tərəfi əvvəlcə 10 bəndlik plan təqdim etsə də, bu sənəd Prezident Donald Tramp və onun danışıqlar komandası tərəfindən dərhal rədd edilib. Bildirilib ki, həmin plan "hərfi mənada zibil qutusuna atılıb" və ABŞ üçün heç bir şəkildə məqbul sayılmayıb.

Artıq danışıqlarla bağlı ortada yeni plan var. ABŞ tərəfi bu sənədin artıq müəyyən şərtlər daxilində müzakirə üçün əsas yarada biləcəyini açıqlayıb. Bununla yanaşı, Vaşinqton bir daha əsas şərtlərini xatırladıb. Xüsusilə qeyd olunub ki, İranın uranı zənginləşdirməsinə son qoyulması ABŞ üçün dəyişməz "qırmızı xətt" olaraq qalır.

Açıqlamada bildirilir ki, Prezident Donald Tramp İranın maksimalist tələblərini heç vaxt saziş kimi qəbul etməyəcək və bu barədə yayılan iddialar "absurd" xarakter daşıyır.

Ağ Ev eyni zamanda Hörmüz boğazı ilə bağlı yayılan xəbərlərə də münasibət bildirib. Vaşinqton İran dövlət mediasında səsləndirilən "boğazın bağlanması" ilə bağlı məlumatları təkzib edib və bunun reallığı əks etdirmədiyini vurğulayıb. Bildirilib ki, bu, Tehranın ictimai bəyanatları ilə qapalı danışıqlarda səsləndirdiyi mövqelər arasında ciddi ziddiyyət olduğunu göstərir.

**İslamabada kimlər gedir?**

Bu arada "Reuters" aprelin 10-da İslamabadda baş tutacaq danışıqlarda tərəfləri kimlərin təmsil edəcəyini açıqlayıb. Bildirilir ki, ABŞ nümayəndə heyətində vitse-prezident C.D. Vens rəhbərlik edəcək - nümayəndə heyətində isə Stiv Vitkoff və Cared Kuşner daxildir. İran tərəfini isə parlament sədri Məhəmmədbaqir Qalibafın başçılıq etdiyi nümayəndə heyəti təmsil edəcək. Yayılan xəbərlərə görə, görüşdə İranın xarici işlər naziri Abbas Əraqçi də iştirak edəcək.

ABŞ Prezidenti Donald Tramp isə ABŞ və İran arasında mümkün razılaşmaya dair danışıqların bağlı qapılar arxasında aparılacağını bildirib. "ABŞ üçün məqbul olan müqavilənin yalnız bir çox mühüm məqamları var və biz bu danışıqlar zamanı onları bağlı qapılar arxasında müzakirə edəcəyik. Bunlar atəşkəslə bağlı razılaşmamızın əsasını təşkil edən məqamlardır", o, "Truth Social"da yazıb.

**Urana "yox"...**

Zənginləşdirilmiş uranla bağlı fikir ayrılığı ətrafında da müzakirə davam etməkdədir. Tehran bu məsələdə qarşı tərəfin mütləq güzəştə getməsini tələb etsə də, Vaşinqton mövqeyindən geri çəkilmir. Belə ki, Pentaqon rəhbəri Pit Heqset Tehranın atəşkəs anlaşmasından çıxa biləcəyi xəbərdarlığı barədə məlumat yayıb. "İran zənginləşdirilmiş uranı təhvil verməsə, ABŞ yenidən zərbə endirə bilər", - deyə o, xəbərdarlıq edib.

Nazir İranın Trampın ABŞ-ın basdırılmış materialı "qazıb çıxarmaq" üçün onlarla əməkdaşlıq edəcəyi barədə bəyanatına razı olub-olmadığı barədə heç bir məlumat verməyib. Lakin Heqset bildirib ki, İran "bunu bizə könüllü olaraq verəcək", əks halda ABŞ ötən yay İsrailin İranın nüvə obyektlərinə zərbə endirməsinə "bənzər bir şey" edə bilər. "Biz bu ehtimalı saxlayırıq", - Heqset əlavə edib. O bildirib ki, İran heç vaxt nüvə silahına malik olmayacaq.

**"İrana qarşı hərbi əməliyyatlar bərpa olunacaq"**

İrana qarşı hərbi əməliyyatların yenidən bərpa olunması ehtimalı ABŞ dövlət başçısı tərəfindən də təsdiqlənib. Tramp bildirib ki, ABŞ-ın Yaxın Şərqə topladığı hərbi qüvvələr İranla davamlı anlaşma əldə olunana qədər orada qalacaq. Onun sözlərinə görə, ABŞ qüvvələri atəşkəs müqaviləsinin şərtləri tam yerinə yetirilənə qədər İranın ətrafında qalacaq. Ağ Ev rəhbəri vurğulayıb ki, ABŞ gəmiləri, təyyarələri və qoşunları müqavilə tam yerinə yetiriləndək İranın yaxınlığında yerləşəcək. Trampın sözlərinə görə, Tehranla Vaşinqton nüvə proqramı və Hörmüzlə bağlı razılığa gəliblər. O, xəbərdarlıq edib ki, əgər davamlı sülhü təmin edəcək anlaşmaya nail olunmazsa, daha genişmiqyaslı hərbi əməliyyatlar başlayacaq.

**SADİQ**

# Avropanın təhlükəsizliyi: Ukraynanın roluna ehtiyac var

Son 4 ildə Ukrayna Rusiya ilə müharibədə öz müdafiəsini təmin etməkdən ötrü kollektiv Qərbin, xüsusilə də Avropa İttifaqının (Aİ) hərtərəfli dəstəyindən bəhrələnib. Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sərt sanksiyalar, Ukraynaya göstərdiyi davamlı maliyyə və texniki dəstək bu ölkənin müqavimət imkanlarını əhəmiyyətli dərəcədə artırıb.

İndi isə dəyişən geosiyasi şəraitdə elə bir vəziyyət yaranıb ki, Ukraynanın özü Aİ-nin təhlükəsizliyinin təmin olunmasında rol ala bilər. Bu barədə Volodimir Zelenski növbəti dəfə müraciətində bildirib. Xatırladaq ki, bu mövzuda müzakirələr xeyli müddət bundan əvvəl başlayıb. Aİ məkanında xüsusilə də Ukraynanın dron, pilotsuz uçuş aparatları (PUA) texnologiyalarına maraq getdikcə artır.

## Kiyevin Yaxın Şərq təcrübəsinə istinad

Prezident Volodimir Zelenskinin müraciətində vurğulanır ki, Ukrayna əvvəllər Yaxın Şərqdə və Fars körfəzi ölkələrində keçirilən danışıqlarda qəbul edilmiş təhlükəsizlik üzrə öz təkliflərinin Avropa hissəsini hazırlayır. Dövlət başçısının müraciətində Yaxın Şərq təcrübəsinə istinad olunması təsadüfi deyil. Məlumdur ki, bir qədər bundan əvvəl V.Zelenski İran-İsrail-Amerika Birləşmiş Ştatları müharibəsinin aktiv fazada olduğu həssas bir dönəmdə regionun ayrı-ayrı ölkələrində səfərdə olub. Bu səfərlər çərçivəsində müzakirələr əsas etibarı ilə təhlükəsizlik məsələləri ətrafında aparılıb.

İndiki məqamda Ukraynanın və Yaxın Şərq ölkələrinin maraqları müəyyən mənada kəsişir və onları ortaq məxrəcə gətirən bir sıra vazkeçilməz amillər var. Artıq beşinci ildir ki, müharibə vəziyyətində olan Ukraynanın maliyyəyə, Yaxın Şərq və körfəz ölkələrinin isə müdafiə sistemlərinə kəskin ehtiyacları var. Səfər çərçivəsində aparılan müzakirələrdə tərəflərin bu kimi maraqları uzlaşdırılıb, bir sıra önəmli razılaşmalar əldə edilib və böyük maliyyə tutumuna malik müqavilələr imzalanıb. Mart ayında reallaşan səfərdən sonra V.Zelenski Səudiyyə Ərəbistanı, BƏƏ, Qətər və İordaniya kimi ərəb dünyasının aparıcı ölkələri ilə "tarixi" adlandırdığı 10 illik strateji hərbi əməkdaşlıq müqavilələrinin detallarını açıqlayıb. Bu razılaşmalar bütün tərəflər üçün əhəmiyyətlidir. Ukrayna lideri qeyd edib ki, hazırda rəsmi Kiyevi ən çox maraqlandıran məsələ kəskin qıtlıq yaşanan raket-interseptorların (raket əleyhinə raketlər) tədarüküdür. Bunun müqabilində Ukrayna ərəb tərəfdaşlarına dünyada analoqu olmayan dəniz dronlarının tədarükü və onların idarə edilməsi üzrə unikal təcrübəsini təklif edib.

Zelenski tərəfindən açıqlanan strateji razılaşmaların əsas bəndləri bunlardır:

Məxfi dəniz dronları tədarükü: Ukrayna Qara dənizdə Rusiya donanmasını iflic edən "Sea Baby" və "Magura" tipli dəniz dronlarını ərəb ölkələrinə tədarük etməyə razılıq verib. Bu dronlar Körfəz ölkələrinin sahil mühafizəsini gücləndirmək üçün istifadə olunacaq.

Enerji təhlükəsizliyi zəmanəti: Körfəz ölkələrinin liderləri Ukraynanın enerji sistemini bərpa etmək və yanacaq ehtiyaclarını qarşılamaq üçün uzunmüddətli dəstək vədləri veriblər. Artıq bu istiqamətdə konkret razılaşmaların olduğu bildirilir.

10 illik hərbi çətir: Hər bir ərəb ölkəsi ilə fərdi şəkildə imzalanan bu müqavilələr təkcə silah alış-verişini deyil, həm də birgə hərbi istehsalı və kibertəhlükəsizlik sahəsində koordinasiyanı əhatə edir.

Bildirilir ki, Ukraynanın "təhlükəsizlik donoru" kimi çıxış etməsi və ərəb dünyasına müasir müharibə texnologiyaları təklif etməsi regionda dəniz təhdidlərinə qarşı yeni bir balans yaradır.



## Aİ ölkələri ilə birgə istehsal, modernləşdirmə və maliyyələşdirmə proqramları

Biz yuxarıda artıq 4 ili geridə qalan Rusiya ilə müharibədə Qərbin, o cümlədən də Avropa İttifaqının Ukraynaya kritik önəm daşıyan dəstəyini qeyd etdik. Lakin ötən müddətdə dünya Ukraynanın unikal təcrübəsinin şahidi olub. Belə ki, bu ölkə Rusiyaya qarşı müqavimətini yalnız Qərbdən gələn dəstək hesabına təmin etməyib, paralel şəkildə özünün müdafiə sənayesini inkişaf etdirib, müxtəlif növ yeni nəsl silah-sursat istehsalını artırıb.

Azərbaycanın qələbəsi ilə sonuclanan 44 günlük müharibə hərb tarixində artıq yeni bir dönəmin başladığını təsdiqlədi. Bu müharibədə dronların, PUA-ların nə qədər effektiv olduğu üzə çıxdı. Yaxın Şərqdə və Şərqi Avropada gedən müharibələrdə İranın və Ukraynanın daha çox istifadə etdikləri ucuz dronları və PUA-ları zərərsizləşdirməkdən ötrü rəqiblər istehsal dəyəri kifayət qədər böyük olan raketlərdən istifadə etmək məcburiyyətində qalırlar. Beləliklə də, ucuz başa gələn uçan aparatlar qarşı tərəf üçün müharibəni daha bahalı edir. Tam qətiyyətlə deyə bilərik ki, Ukrayna dronların və PUA-ların istehsalında inqilabi sayıla biləcək uğurlara imza atıb. Artıq bu ölkənin müvafiq texnologiyalarına Avropanın özündə, hətta ABŞ-da da ehtiyac yarandığı açıq şəkildə etiraf olunur. Qeyd edək ki, Ukrayna 2026-cı il iyunun 30-dək Vaşinqtonla planlaşdırılan razılaşma çərçivəsində ABŞ-a dron tədarükünə başlamağı planlaşdırır. Bu barədə Ukrayna hökumətinin Ali Radaya təqdim olunmuş 2025-2026-cı illər üzrə fəaliyyət proqramında bildirilib.

Həmçinin Avropa İttifaqı ölkələri də dron, PUA və digər innovativ texnologiyaların istehsalında Ukraynanın təcrübəsindən bəhrələnmək niyyətindədirlər. O cümlədən "Rheinmetall", "Thales", "KNDS", "Kongsberg D&A" kimi aparıcı Avropa silah istehsalçıları ilə birgə müəssisələrin yaradılması da gündəmdədir. "Növbəti həftələr Avropadakı tərəfdaşlarımızla işlər birgə istehsal, modernləşdirmə və müdafiə sahəsində maliyyələşdirmə proqramları, təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətlərin koordinasiyası üzrə aparılacaq", - deyə V.Zelenski bəhs olunan müraciətində vurğulayıb.

Xatırladaq ki, Ukrayna 2024-cü il üçün təxminən 1 milyon dron almağı planlaşdırmışdı. 2025-ci il üçün isə müxtəlif təyinatlı 4,5 milyon pilotsuz uçuş aparatının tədarükü nəzərdə tutulmuşdu. Ukraynanın müdafiə nazirinin müavini Sergey Boyevin məlumatına görə, bu ölkə 2026-cı ildə 7 milyondan çox pilotsuz uçuş aparatı istehsal etməyi hədəfləyir. Yeni hədəflər dron istehsalının hərbi strategiyada əsas prioritetlərdən birinə çevrildiyini göstərir.

*Mübariz FEYİZLİ*

# Yuvasını yandıran vulkan

## İvan Qonçarovun "Uçurum" romanı haqqında

**əvvəli ötən saylarımızda**

Bu ara malikanədə Rayskinin arzuladığı, həvəslə axtardığı ehtiras tufanı qopur: Saveli adlı mujik arvadı Marinanı ayağısürüşkənliyinə görə möhkəmcə döyür. Nənə boynuna alır ki, nökər-qaravaş hamılıqla zinaya qurşanıb, həmin bu Marina isə heç bir çərçivəyə sığmır, belə getsə, əri onu öldürəcək. Mülkədarlar arasında da macəra həvəskarları var: məsələn, nənənin daimi qonağı, yaşlı dul qadın Polina Karpovna Kritskaya xoşlayır ki, kimsə ona vurulsun, say-seçmə cavanlar arxasınca gəzsinlər, o da onları yedəyində hərləsin; iki daşın arasında hətta Rayskiyə də qarmaq atmağa fürsət tapıb, amma insafən, onunku sözdən o yana keçmir.

Rayski Kozlovun evinə pəncərədən girən Mark Voloxovla tanış olur. Mark hər cür adət-ənənənin, hətta qanun-qaydanın belə əleyhinə gedən tipdir. Boris ona nənəliyinin yanında şam eləmək təklifi verir, mühafizəkar nənəninsə, təbii ki, Markdan zəhləsi gedir. Sözü üzə qırmızı deyən Mark söhbət əsnasında Rayskini uğursuz adam adlandırır.

Vera qonaq getdiyi yerdən qayıdanda Rayski görür ki, bacıların bir-birinə oxşarı yoxdur. Anlayır ki, hələ uşaqlıq yuxusundan ayılmamış Marfadan ona yar olası deyil, odur ki, qarasaç, qaragöz Veranı izləməyə başlayır. Onu yalnız yandırıcı gözəllik, dağıdıcı ehtiras maraqlandırır. Bu vaxt onun qənaətinin təsdiqi kimi Marfanın dostu gənc mülkədar Vikentyev də qonaq gəlir - onlar bir-birinə çox yaraşırlar, hər ikisi həyatla dolu qaynayan qab kimidir. Getdikcə qonaqlar artır, hər birinin də öz xasiyyəti, öz taleyi, öz tarixçəsi var.

Rayski əyalət mühitində darıxır. Şəhəri bir az dolaşıb Kozlovun evinə dönür, dəhlizdə duyuq düşür ki, Leontinin arvadının yanında başqa kişi var, ona görə də qapıdan qayıdır. Oradan Voloxovun yanına gedir. Mark onunla mərcə girir ki, uzağı iki həftəyə Boris Pavloviç buralarda kiməsə vurulacaq.

Vera Rayskidən qaçır, o isə gecəgündüz ondan gen gəzən bu qız haqqında düşünür. Nəhayət, onlar açılışırlar, Vera qəti şəkildə bildirir ki, əgər qohumu ona sərbəstlik verməsə, onu təqib eləməkdən əl çəkməsə, buralardan çıxıb gedəcək. Rayski Veranın bu qədər cəsarəti haradan aldığına, azadlıq şüuruna, iradəsinə necə yiyələndiyinə təəccüblənir. Axırda qohumlar sözləşirlər ki, dost olsunlar. İkinci bölüm bununla başa çatır.

***

Ondan sonra Rayski Vera haqda düşünməmək üçün cürbəcür üsullarla başını qatır, əkin-biçin sahələrinə baş çəkir, özünü ağa kimi aparmağa çalışır. Bazar günü nənənin bir qoşun qonağı gəlir. Onlardan ən məşhuru Nil Andreyeviç Tıçkovdur - palata sədri, şəhərdə hamının tanıdığı, mənəviyyat etalonu saydığı adam. Tıçkov məclisdə dul qadın Kritskayanı ələ salır, onu, demək olar, təhqir eləyir. Rayski dözməyib Tıçkovun olmayan abrını ətəyinə bükür, rüşvətxorluğu, haramxorluğuyla şəhərdə ad çıxardığını, bir vaxt fırıldaq işlədib sərvətini taladığı doğmaca qardaşı qızını dəlixanaya basdırdığını onun yadına salır. Nil Andreyeviç coşub özündən çıxır, Tatyana Markovna hətərən-pətərən danışmağa başlayan qocanı evindən qovur, nənənin mərdliyinə heyran qalan Rayski onu qucaqlayıb öpür. Vera isə cəsarətinə görə Rayskiyə bir öpüş bəxşiş verir. Tıçkovun qırx illik zəhmi bir həmlədə puça çıxır.

Bu hadisədən sonra Vera Borisdən çəkinməməyə, ona yaxınlıq verməyə başlayır. Bir qadın kimi Rayskiyə laqeyd olsa da, onunla söhbətləşmək, fikir bölüşmək Veraya xoş gəlir. Bu arada Rayski nənənin də portretini çəkməyə girişir. Bütün bu portretlər həm də rəmzi mahiyyət daşıyır, yazıçının yaratdığı obrazların xarakterik cizgiləri üzərində bir rəssam dəqiqliyi ilə necə işlədiyini simvolizə eləyir.

Voloxovla kəsdiyi mərcin üstündən bir ay keçmiş Rayski geri qayıtmağa dartınır. Vidalaşmaq üçün Leontinin evinə gedəndə Markın da burada olduğunu görür. Mark Borisi cırnatmağa çalışıb deyir ki, tənbəl, uğursuz olduğuna görə yazdığı romanı tamamlaya bilməyəcək, üstəlik də vurulduğunu onun boynuna qoymaq istəyir. Rayski aşiq olduğunu boynundan atmağa, qəlbində közərən duyğunun sönüb getdiyinə hətta özünü inandırmağa çalışsa da, Veranın ondan məktub gizlədiyini görəndə qısqanclığını boğa bilmir, özünü bir növ ələ verir. Vera isə inadla sirrini ondan gizləyir, qohumunu cürbəcür söz oyunlarıyla yanıltmağa, azdırmağa cəhd göstərir.

Xanım Kritskayanın təkidi sayəsində Rayski onun da portretini yaratmağa məcbur olur. Bu da simvolik dildə o deməkdir ki, gerçək yazıçı bir əsər qələmə alanda müəllifin təxəyyülündən həmin əsərə doğru yol gələn obrazlar məqamı çatanda özləri yazıçının qarşısında peyda olurlar, qeybdən zühura gələn personajlar rolların oynamaq üçün səhnəyə çıxıb, müəllifdən özlərinin surətlərini yaratmağı inadla tələb eləyirlər. Əsər üzərində işləyəndə buna bənzər hisslər keçirdiyini, kölgələr, kabuslar, ruhlarla danışdığını, məchul bir aləmdən verilmiş hansısa sifarişi yerinə yetirdiyini dilə gətirən yazıçılar az olmayıb. Qonçarov bu prosesi bizə obrazlı şəkildə göstərir.

Əyalətə faktiki sürgün olunmuş, ötən ildən bəri polis nəzarəti altında saxlanan Mark Voloxov indi də əhali arasında yasaq kitablar yaymaq ittihamıyla suçlanır. Markın xahişiylə Rayski qubernatorun yanına gedib günahı öz boynuna götürür, cinayətin üstünü malalayır. Bu ara Vera Borisə başqasını sevdiyini etiraf eləyib, yenidən çayın o tayına - keşiş arvadının yanına gedir. Yalqız qalan Rayski qısqanclıqdan özünə yer tapa bilmir, nənənin ağzını arayıb, Veranın kimi sevə biləcəyini öyrənməyə çalışır. Nənə meşəbəyidən şübhələnir. Söhbət Veranın dostluq elədiyi İvan İvanoviç Tuşindən gedir. Tuşinin meşənin ortasında taxta zavodu var, özü də bacısıyla birgə meşədəki evində yaşayır.

Rayskinin xanım Kritskaya ilə çox vaxt keçirməsi şəhərdə şayiələrə səbəb olur. Boris sadədil dostu Leontinin ayağısürüşkən arvadını doğru yola qaytarmaq üçün Kozlovgilə gedir, ancaq onun missiyası tamam tərs effekt verir, Ulyananın yırtıcı ehtirası, hiyləgər şəhvəti qarşısında Rayski də duruş gətirə bilmir, adam gözünü açanda özünü qadının tələsində tapır. Bu iradəsizliyi onu möhkəm sarsıdır, dostunun namusuna ləkə yaxanların sırasında durması Boris Pavloviçin dərdinə dərd artırır, onu öz gözündən salır.

Vera Rayskini inandırır ki, onun qəhrəmanı Tuşin deyil. Bu məsələ aydınlaşandan sonra Vikentyev Marfaya elçi düşür, ertəsi gün oğlanın anası nənənin qapısına gəlir, gənclərin niyyəti rəsmiləşir. Ardınca evdə toya hazırlıq görülməsinə başlanır. Bundan ruhlanan Rayski Verayla anlaşmağa yenidən cəhd göstərir, Vera isə bu fikirdədir ki, qohumu onu sevmir, başqa qadınlara münasibətində olduğu kimi sadəcə könül əyləndirir. Bağçada gəzəndə Boris Verayla təsadüfən qarşılaşır, ancaq qızın görüşə hazırlaşdığını başa düşsə də, Markla görüşdüyünü bilmir. Onlar keçən ilin yayında, Voloxov Veragilin bağından alma oğurlayanda tanış olublar. Bir ildir görüşürlər, özü də harada - uçurumun altında!

***

Üçüncü bölüm Markla Veranın ötənilki tanışlığının tarixçəsiylə bitir, dördüncü hissə hazırkı görüşün təfsilatıyla başlanır. Onlar uçurumun ayağındakı köhnə bir köşkdə görüşürlər. Bir-birini sevsələr də, həyata baxışları daban-dabana ziddir. Vera Markdan gənclərə qadağan olunmuş kitablar verməməyi, dinc oturmağı xahiş eləyir. Voloxov Veranı yalnız ərə getmək barədə düşündüyünə görə qınayır, halbuki ona sevdiyi qızın timsalında yol yoldaşı, könül sirdaşı lazımdır. Niyyətləri üst-üstə düşmədiyinə görə onlar ayrılmaq qərarına gəlirlər.

**davamı növbəti sayımızda**



*F.Uğurlu*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressInform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**





# Yeni layihə...

## Əməkhaqqı ödənişində gender bərabərliyi qorunacaq!

Gender bərabərliyi yalnız sosial ədalət məsələsi deyil, həm də iqtisadi inkişafın mühüm şərtidir. Xüsusilə əməkhaqqı ödənişində qadınlar və kişilər arasında mövcud fərqlər uzun illərdir ki, qlobal miqyasda müzakirə olunur. Bu problem bir çox ölkədə müxtəlif səviyyələrdə qalmaqdadır və onun aradan qaldırılması üçün kompleks yanaşma tələb olunur.

### Gender maaş fərqi...

Gender maaş fərqi eyni və ya bənzər işləri yerinə yetirən qadın və kişilər arasında əməkhaqqı fərqini ifadə edir. Statistik məlumatlar göstərir ki, qadınlar çox vaxt eyni iş üçün kişilərdən daha az əməkhaqqı alırlar. Bu fərq açıq diskriminasiya ilə yanaşı, dolayısı amillərlə də bağlıdır.

### Əmək Məcəlləsində dəyişikliklər olacaq

İşəgötürənlərin bərabər əməkhaqqı təmin etmək öhdəliyi konkretləşdirilir və əməkhaqqı sistemində cinsə görə ayrı-seçkiliyin qarşısının alınması gücləndirilir. Bu məsələ Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında müzakirə olunan Əmək Məcəlləsində və "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanunda dəyişiklik edilməsi barədə Qanun layihəsində əks olunub.

Əmək Məcəlləsinə təklif edilən dəyişikliyə görə, cinsindən asılı olmayaraq, eyni işlə məşğul olan işçilərə eyni iş şəraitini yaratmaq, eyni və ya bərabər dəyərli müxtəlif işi yerinə yetirən işçilərə bərabər əməkhaqqının verilməsini təmin etmək, eyni pozuntuya görə işçilərə fərqli intizam tənbehi tədbirini tətbiq etməmək, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin və seksual qısnamanın qarşısını almaq üçün lazımi tədbirlər görmək işəgötürənin əsas vəzifələri hesab ediləcək.

Həmçinin, Məcəllənin 154-cü maddəsinə əlavə edilən hissədə işəgötürənin cinsindən asılı olmayaraq eyni və ya bərabər dəyərli müxtəlif işi yerinə yetirən işçilərə bərabər əməkhaqqı ödəməyə borclu olduğu qeyd olunub. İşin bərabər dəyərli olması əmək şəraiti, əmək funksiyasının xarakteri və qüvvədə olan vahid tarif-ixtisas sorğu kitabçalarında nəzərdə tutulmuş tarif-ixtisas xüsusiyyətləri nəzərə alınmaqla işəgötürən tərəfindən müəyyən edilir.

Bundan əlavə, layihədə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanununa təklif olunan dəyişikliyə əsasən əməkhaqqının yalnız eyni və ya oxşar işlərə görə deyil, bərabər dəyərli işlərə görə də ödənilməsi nəzərdə tutulur.

### Əmək bazarında daha ədalətli və müasir prinsiplər...

İqtisadçı Fuad İbrahimov "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, müzakirəyə çıxarılan dəyişikliklər ölkəmizdə əmək münasibətlərinin daha ədalətli və müasir prinsiplər əsasında qurulmasına xidmət edir: "Əsas məqsəd ondan ibarətdir ki, hər bir vətəndaş - qadın və ya kişi olmasından asılı olmayaraq, gördüyü işə görə ədalətli və bərabər əməkhaqqı alsın. Təklif edilən dəyişikliklər açıq şəkildə müəyyən edir ki, eyni işi görən və ya dəyər baxımından bərabər olan müxtəlif işləri yerinə yetirən şəxslər arasında maaş fərqi qoyulması yolverilməzdir.

Bununla yanaşı, işəgötürənlərin məsuliyyəti daha da konkretləşdirilir. Onlar yalnız bərabər əməkhaqqını təmin etməklə kifayətlənməməli, həm də iş yerində cinsi ayrı-seçkiliyin qarşısını almaq üçün qabaqlayıcı və effektiv tədbirlər görməlidirlər. Bundan başqa, eyni pozuntuya görə fərqli işçilərə fərqli intizam tənbehinin tətbiqi kimi halların da qarşısı alınacaq".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti üzrə hazırlanmışdır**

### Qadınların əmək bazarında iştirakı stimullaşdırılacaq

İqtisadçı qeyd edib ki, bu dəyişikliklər həm Əmək Məcəlləsi, həm də Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Qanun çərçivəsində hüquqi bazanı gücləndirərək daha şəffaf və ədalətli əmək mühiti formalaşdıracaq: "Əminliklə deyə bilərəm ki, bu addım yalnız sosial ədalətin təmin olunması deyil, həm də iqtisadi inkişaf və sağlam əmək bazarının formalaşması baxımından mühüm əhəmiyyət daşıyır. Bu dəyişikliklər qadınların əmək bazarında iştirakını stimullaşdıracaq, iş yerlərində bərabər imkanları genişləndirəcək və ümumilikdə cəmiyyətimizdə gender bərabərliyinin real təmininə xidmət edəcək.

Əməkhaqqı ödənişində gender bərabərliyi yalnız qadınların hüquqlarının qorunması deyil, həm də daha ədalətli və dayanıqlı cəmiyyət quruculuğunun əsas elementidir. Bu istiqamətdə həm dövlət, həm özəl sektor, həm də cəmiyyət birlikdə çalışmalıdır. Yalnız bu halda hər kəs üçün bərabər imkanlar təmin oluna bilər".

*Yeganə BAYRAMOVA*

# Hər tikilinin arxasında böyük zəhmət var...



## Bu gün inşaatçıların bayramıdır

Hər gün yanından ötüb keçdiyimiz binalar, körpülər, yollar - bunların hər biri sadəcə daş və dəmir parçası deyil. Onların arxasında minlərlə insanın zəhməti və alın təri dayanır. İnşaat sektoru hər bir ölkənin sosial-iqtisadi tərəqqisinə təkan verən amillərdən biridir. Bu sahə dövlətimizin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının prioritetlərindən sayılır. Son illər Azərbaycan tikinti sektorunda gedən canlanma və dinamik inkişaf da bunu sübut edir.

Yeri gəlmişkən, bu gün - aprelin 10-u ölkəmizdə İnşaatçılar Günüdür. Prezident İlham Əliyevin 2009-cu il 16 dekabr tarixli sərəncamına əsasən, hər il aprelin 10-u ölkəmizdə "İnşaatçılar Günü" kimi qeyd olunur.

**Qədim tarixə malik memarlıq abidələrimiz...**

Azərbaycanda tikinti işlərinin geniş vüsət alması isə XIX əsrin sonlarına - XX əsrin əvvəllərinə təsadüf edir. Həmin dövrdən indiyədək qorunub saxlanılan yaşayış və ictimai binalar özündə Şərq və Qərb memarlığının nadir nümunələrini əks etdirir.

Maddi mədəniyyətimizin çox qiymətli nümunəsi olan İçərişəhər təkcə Azərbaycan üçün deyil, həm də bəşəri dəyər kimi yüksək qiymətləndirilən tarixi abidədir. Bunu İçərişəhərin ərazisində yerləşən Qız qalası və Şirvanşahlar Saray Kompleksinin UNESCO-nun Dünya Maddi İrs Siyahısına salınması da sübut edir. Həm Şirvanşahlar Saray Kompleksi, həm də Qız qalası Azərbaycan qanunvericiliyi, eləcə də UNESCO tərəfindən dünya əhəmiyyətli abidələr kimi tanınır. Azərbaycan memarlığı və tarixinin bir hissəsi, xalqımızın maddi-mədəniyyət irsinin qiymətli nümunəsi olan bu abidələr UNESCO-nun ümumdünya irsi kimi qəbul olunub. Təbii ki, bu da Azərbaycanın dünya mədəni irsinə çox əhəmiyyətli bir töhfəsidir.

Ötən əsrin 70-ci illərində respublikamızda tikinti sektorunun inkişafı sürətlənib. Şəhər və rayonlarda nəhəng istehsal müəssisələri, yüzlərlə yaşayış binası, səhiyyə, mədəniyyət, təhsil obyektləri tikilib istifadəyə verilib. Bu gün isə ölkəmizdə böyük tikinti-quruculuq işləri aparılır. Son illər qəbul edilən Dövlət proqramlarının uğurlu icrası iqtisadiyyatın kompleks inkişafına səbəb olub, tikinti işlərinin əhatə dairəsi xeyli genişlənib. Bu da nəticə etibarilə yeni iş yerlərinin açılmasına, məşğulluq məsələlərinin həllinə və əhalinin rifahının yaxşılaşdırılmasına səbəb olub.

**Metro inşaatçılarının əməyi...**

İctimai sərnişindaşımada vacib rol oynayan Bakı Metropoliteninin inşaatçıları peşə bayramını məhz yerin altında qeyd edirlər. Bakı Metropoliteninin hər gün minlərlə sərnişinə yüksək səviyyədə xidmət göstərməsi məhz metro tikintisində gecə-gündüz demədən çalışan insanların əməyinin nəticəsidir. Metro inşaatçıları 2023-cü ilin sonlarını da xüsusi bayram kimi qeyd etdilər. Məhz azərbaycanlı zəhmətkeşlərin əməyi sayəsində "Xocəsən" elektrik deposu və "Xocəsən" stansiyası istismara verildi.

**Azad olunmuş ərazilərə yeni həyat verilir!**

Qeyd edək ki, işğaldan azad olunan ərazilərdə böyük tikinti-quruculuq işləri həyata keçirilir. Doğma yurd yerlərimizdə yeni evlərin, kəndlərin salınmasına başlanılıb və bu işlər xüsusi nəzarət altında icra olunur. Ümumilikdə, 2024-2026-cı illərdə Ağdam rayonunda 9690, Füzuli rayonunda 5634, Tərtər rayonunda 368, Xocavənd rayonunda 307 olmaqla, cəmi 15 min 999 fərdi ev və mənzilin tikilməsi nəzərdə tutulur. Azad olunan bütün yaşayış yerləri zamanla sakinlərini qarşılamağa hazır olacaq.

Bu gün ölkəmizdə yenidənqurma, quruculuq işləri uğurla davam etdirilir. Aparılan tikintilərdə Azərbaycan memarlığının heç zaman bitib-tükənməyən milli ruhu, koloriti və daimi müasirliyi öz əksini tapır.

*Yeganə BAYRAMOVA*

# Orta yaşda D vitamini səviyyəsi Altsheymer riskinə necə təsir edir?

İrlandiyanın Qalvey Universitetində aparılan beynəlxalq araşdırma orta yaşlarda yüksək D vitamini səviyyəsi səbəbindən sonrakı illərdə Altsheymer xəstəliyi ilə bağlı göstəricilərin daha aşağı olduğunu aşkarlayıb.

AZƏRTAC "Neurology Open Access" jurnalına istinadla xəbər verir ki, tədqiqat çərçivəsində orta yaşı 39 olan və demans (beyin funksiyalarının azalması) əlamətləri müşahidə edilməyən 793 nəfərin qanında D vitamini səviyyəsi ölçülüb. Təxminən 16 il sonra iştirakçıların beyin müayinələri aparılaraq Altsheymer xəstəliyi ilə əlaqəli tau və amiloid-beta zülallarının səviyyələri təhlil edilib. Nəticələr göstərib ki, orta yaş dövründə daha yüksək D vitamini səviyyəsinə malik şəxslərdə illər sonra Altsheymer ilə bağlı biomarkerlər daha aşağı səviyyədə müşahidə oluna bilər.



Araşdırmanın müəlliflərindən Martin David Mulligan bildirib ki, yüksək D vitamini səviyyəsi beyində tau zülalının yığılmasına qarşı qoruyucu rol oynaya bilər.

Bununla yanaşı, tədqiqatçılar əldə olunan nəticələrin yalnız əlaqəni göstərdiyini və D vitamininin birbaşa olaraq tau səviyyəsini azaltdığını və ya demans riskini aşağı saldığını sübut etmədiyini vurğulayıblar.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5218**
**Sifariş: 467**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova